31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 64 (8657) ÇƏRŞƏNBƏ, 31 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Şuşadan dünyaya verilən mesaj



## İlham Əliyevin Cıdır düzündə alovlandırdığı bayram tonqalı Azərbaycanın döyüş meydanındakı Zəfərinin təcəssümü oldu

Azərbaycan xalqı bu baharı tamamilə fərqli əhvali-ruhiyyədə qarşıladı. Son 30 ilə yaxın müddətdə ilk dəfə olaraq Novruz bayramını ürəkdolusu, təntənə ilə qeyd etdik. Çünki bu il Novruz tonqalları həm də işğaldan azad edilmiş torpaqlarımızda qalandı.

### Artıq Qarabağdan bahar qoxusu gəlir

30 ilə yaxın idi ki, düşmən tapdağında olan torpaqlarımız Novruza həsrət idi. Müzəffər Ordumuz ötən ilin cəmi 44 günlük Vətən müharibəsindəki qələbə ilə xalqımızın bu mənəvi iztirabına son qoydu. Ali Baş Komandan İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü bərpa etməklə həm də Novruz bayramını Qarabağa qaytardı. Artıq azad olunmuş bütün torpaqlarımızdan - doğma Qarabağımızdan baharın xoş qoxusu gəlir.

Buna görə Prezident İlham Əliyevin Şuşada, Cıdır düzündə qaladığı bayram tonqalı böyük rəmzi məna daşıyır. Çünki bu tonqal Azərbaycanın həm döyüş meydanındakı Zəfərinin, həm də xalqımızın mənəvi Qələbəsinin təcəssümü idi. Bununla İlham Əliyev torpaqlarımızın işğaldan azad edildiyini bir daha dünyaya çatdırdı. Bu bayram tonqalı ilə İlham Əliyev bir daha Şuşanın Azərbaycan şəhəri olduğunu dünyaya bəyan etdi.

### Hər kəs Ali Baş Komandana inanırdı

"Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq". Prezident İlham Əliyev bu sözləri 3 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi.

Prezident İlham Əliyevin çıxışlarında bu məzmunlu ifadələr çoxdur. Çünki dövlət başçısının hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində torpaqlarımızın işğaldan azad olunması məsələsi prioritet idi. İlham Əliyev hər zaman bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə güclü Azərbaycan Ordusu öz sözünü deyəcək.

Hər Novruz günlərində isə xalqımızın ən böyük arzusu və niyyəti növbəti bayramın Qarabağda qeyd edilməsi barədə olurdu. Xalqımız o günün mütləq yetişəcəyinə, bayram tonqallarının Qarabağda qalanacağına əmin idi. Çünki hər kəs öz rəhbərinə, Ali Baş Komandana inanırdı.

44 günlük Vətən müharibəsində qazanılan böyük Qələbə o günü yetişdirdi və İlham Əliyev xalqımıza builki Novruz təbrikini Şuşadan ünvanladı: "Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir".

### Torpaqlarımızın azad edilməsi İlham Əliyev üçün ümdə vəzifə idi

Torpaqlarını işğaldan azad etmək üçün ölkəmiz yalnız Ermənistanla döyüşməli deyildi. Azərbaycan bu müharibədə qalib gəlmək üçün dünya ermənilіyini, erməni təəssübkeşlərini də məğlub etməli, neytrallaşdırmalı idi. Eyni zamanda ordumuz ən müasir döyüş imkanlarına malik olmalı, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə bağlı beynəlxalq hüquqi baza möhkəmləndirilməli idi.

Müraciətində "Mən demişdim ki, hər şeyi vaxtında etmək lazımdır. Nəyi, nə vaxt, necə etmək lazımdır, bilirəm. Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmamışdır" deyən İlham Əliyevin ilk dəfə prezident seçildiyi 2003-cü ildən bəri həyata keçirdiyi fəaliyyət göstərir ki, olduqca müdrik diplomatiya, siyasi uzaqgörənlik və zərgər dəqiqliyi ilə Azərbaycanı bu qələbəyə doğru aparmışdır. Bu illərdə aparılan hazırlıq işlərində lüzumsuz tələskənliklərə yol verilməmiş, gərəksiz addımlar atılmamışdır. Ordumuzun döyüş imkanlarının artırılması, beynəlxalq dəstəyin təmin olunması, düşmənin gözlənilən beynəlxalq təzyiqlərinin neytrallaşdırılması istiqamətində bütün işlər ardıcıllıqla, sistemli şəkildə həyata keçirilmişdir. Ona görə bu gün dönüb arxaya baxanda bir daha görürük ki, ötən illərdə torpaqlarımızın azad edilməsi İlham Əliyev üçün ümdə vəzifə olmuşdur.

### Hazırlaşdıq və düşməni məğlub etdik

Zəfərə gedən yolda mənəvi hazırlıq sahəsində böyük irəliləyişlər əldə olundu. Gənc nəsil vətənpərvər ruhda böyüyərək formalaşdı.

Ardı 6-cı səh.

# Azərbaycanda sosial təminat sistemi daim inkişaf edir



Martın 30-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Binəqədi rayonu, Ziya Bünyadov prospektində yerləşən 4 saylı DOST Mərkəzinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Dövlət başçısı mərkəzin binasında yaradılan şəraitlə tanış olub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev mərkəzdə görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib.

Qeyd edək ki, vətəndaş maraqlarına xidmət edən, onun müasir sosial trendlərə çevik uyğunlaşmasına hesablanan şəffaflıq, sosial ədalət və yeni dövrün çağırışlarından irəli gələrək xidmət sektorunda qabaqcıl innovasiyaların tətbiqi Prezident İlham Əliyevin sosial siyasət fəlsəfəsinin ana xəttini təşkil edir və əhali tərəfindən rəğbətlə qarşılanır. Ölkə üzrə respondentlər arasında keçirilən bir neçə sorğunun nəticələri sosial mexanizmlərə və elektron xidmət elementlərinə insanların xüsusi maraq göstərdiyini də sübuta yetirir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan agentliyin sayca 4-cü DOST Mərkəzində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza sahələri üzrə bütövlükdə 132 xidmət göstəriləcək.

Ardı 2-ci səh.

# Vətən müharibəsindəki Qələbə ilə soyqırımı qurbanlarının da qisası alındı

Tariximizə şanlı qəhrəmanlıq salnamələri ilə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu səhifələr də yazılıb. Xalqımızın başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Mart soyqırımları amansızlığına və miqyasına görə təkcə Azərbaycan deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir.

Bakıda erməni kilsəsinin yanında toplaşan daşnak dəstələri müsəlmanlara ilk atəşi martın 30-da açdılar. Səhəri gün tezdən bolşevik-daşnak dəstələri azərbaycanlılar yaşayan məhəllələrə hücum etdilər. Stepan Şaumyanın xahişi və Leninin xüsusi göstərişi ilə göndərilən iki təyyarə havadan, hərbi gəmilər isə dənizdən azərbaycanlıların yaşadığı məhəllələri bombalamağa başladılar. Yaxşı silahlanmış erməni əsgərləri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, körpələri süngülərin ucuna keçirirdilər. Hər cür vəhşiliyə əl atan bolşevik-erməni cəlladları müsəlman qadınlarını daha ağır formada qətlə yetirirdilər. Şəhərin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 müsəlman qadının meyiti tapılmışdı. Çoxlu gənc qadını diri-diri divara mıxlamışdılar. Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün şəhərin müəyyən yerlərində əvvəlcədən pulemyotlar qoyulmuşdu.

Martın 31-də ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirib, diri-diri yandırmaqla yanaşı, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri də dağıtdılar.

Ardı 6-cı səh.

# İnformasiya savaşının sərkərdəsi

44 günlük İkinci Qarabağ müharibəsindəki Qələbə Azərbaycan tarixinin döyüş meydanında yazılan şanlı səhifəsi olmaqla dövlətimizi, xalqımızı böyütdü, dünyaya daha yaxından tanıtdı. İşğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda müharibə 44 gün davam etdi, erməniпərəst dövlətlərin və bəzi beynəlxalq təşkilatların Azərbaycana göstərdikləri çox ciddi təzyiqlərə və təhdidlərə baxmayaraq, Ali Baş Komandan İlham Əliyevin və Müzəffər Ordumuzun cəsarəti, qətiyyəti və əzmkarlığı sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Aradan aylar, illər, onilliklər, qərinələr keçəcək, lakin bu Qələbə həmişə xalqımızın yoluna işıq salacaq, keçmişimizin qürur mənbəyi kimi daha gözəl gələcəyimizi qurmağa kömək edəcək.

### Heç bir dövlət başçısı müharibə zamanı bu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib

Elmi və siyasi-ictimai fəaliyyətim boyu daim mətbuatla sıx təmasda olmuşam. 50 ildən artıqdır ki, kütləvi informasiya vasitələrində məqalələrlə, müsahibələrlə çıxış edirəm. Jurnalist olmasam da, bu peşə mənə yaxın, doğma, həm də tanışdır. Çoxillik mətbuat təcrübəmə söykənərək bu məqalədə Prezident İlham Əliyevin müharibə günlərində verdiyi müsahibələr kontekstində Ermənistana, onun havadarlarına və dünya ermənilіyinə informasiya savaşında da qalib gəlməsindən bəhs edəcəm.

44 günlük İkinci Qarabağ müharibəsi dövründə Prezident İlham Əliyev 30-a yaxın xarici KİV-ə müsahibə verdi. Bu müsahibələrdə dövlət başçısı Azərbaycanın haqlı mövqeyini, müharibənin başlanma səbəblərini sistemli şəkildə, siyasi uzaqgörənliklə auditoriyanın diqqətinə çatdırdı. Məhz bu müsahibələr Azərbaycanın informasiya savaşında da qələbəsini təmin etdi.

Ardı 4-cü səh.



# Azərbaycan pandemiyaya qarşı beynəlxalq mübarizənin önündədir

Prezident İlham Əliyev nitqlərində hər zaman vurğulayır ki, pandemiyadan çıxış yolu yalnız qlobal həmrəylikdən, dünya dövlətlərinin ümumi səylərini birləşdirməsindən asılıdır.

Təsadüfi deyil ki, COVID-19 pandemiyasına qarşı mübarizədə ölkələrin birgə fəaliyyəti, çoxtərəfli əməkdaşlıq göstərməsi təklifini də məhz Azərbaycan irəli sürüb. Dövlət rəhbərimizin BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsünün dünyanın 130-dan çox ölkəsi tərəfindən dəstəklənməsi də bunun bariz nümunəsidir.

Ardı 7-ci səh.

# Rusiya ermənilərinin rəhbəri Paşinyana qarşı mübarizəyə qoşulur

Ermənistanda növbədənkənar parlament seçkilərinə iki aydan artıq müddətin qalmasına baxmayaraq, seçkiqabağı proseslər indidən gərgin xarakter alıb.

Məsələ ondadır ki, son günlərədək ölkədəki siyasi qüvvələrin sosial bazası baş nazir Nikol Paşinyanın qələbə şansının yüksək olduğunu göstərib. Amma Rusiya erməniləri ittifaqının rəhbəri Ara Abramyanın seçkilərdə iştirak edəcəyini bildirməsi vəziyyəti dəyişdirə bilər.

A.Abramyan deyib ki, Ermənistan indi uçurum qarşısındadır və bu səbəbdən seçkilərdə iştirak edəcək. Onun sərvətinin çox olması isə seçkilərdə Paşinyanın istədiyi səsləri almasına ciddi maneə kimi qiymətləndirilir. "Mən Ermənistana gedəcək və növbədənkənar seçkilərdə aktiv iştirak edəcəyəm. Mən özümü günahkar sayıram, çünki mübarizə aparmadım, soruşmadım ki, o kimdir, haradan gəlib?", - deyə Paşinyanı nəzərdə tutan erməni milyarder qeyd edib.

Tezliklə öz proqramını açıqlayacağını deyən Abramyan erməni diasporuna müraciət edərək onları fəal olmağa və birləşməyə çağırıb: "Paşinyanın seçkilərdə iştirak etmək üçün mənəvi haqqı yoxdur, əminəm ki, o, heç bir səs də qazana bilməz, çünki bizim xalq müdrikdir. Sadəcə olaraq xalqa situasiyanı düzgün izah etmək lazımdır. Xalq düşünməlidir ki, səsini kimə və niyə verir. O, deyirdi ki, xalqını sevir, bəs nə oldu? Xalqını, vətənini sevən adam onu heç vaxt ağ-qaraya bölməz".

Yerevanda aylardır davam edən aksiyalar isə daha gərgin və həlledici mərhələsinə qədəm qoyub. Etiraz edənlərin indiki tələbi seçkilərin keçirilməməsi və Paşinyanın hakimiyyətdən getməsidir. Söylənilənlərə görə, bu, baş verməsə, Ermənistanda vətəndaş müharibəsi qaçılmaz olacaq. "İravunk" qəzetinin bununla bağlı məqaləsində qeyd olunur ki, aksiyanın əsas fəalları kütləvi etirazlara çağırışlarına görə həbs olunub. Onların ailə üzvləri işdən çıxarılıb.

Ardı 7-ci səh.

# Azərbaycanda sosial təminat sistemi daim inkişaf edir

Əvvəli 1-ci səh.













Əlillər, müharibə veteranları, şəhid ailələri dövlətin hər zaman diqqət və qayğı göstərdiyi həssas kateqoriyaya aiddir. Ölkədə fəaliyyətə başlayan bütün sosial obyektlər və xidmət infrastrukturu bu meyarları özündə əks etdirir. Bununla yanaşı, Vətən müharibəsində sağlamlıqlarını qismən itirən qazilərin qısa zamanda cəmiyyətə inteqrasiyası məqsədilə reabilitasiya vasitələrinin verilməsi, onların yüksək texnologiyalı protezlərlə təmin edilməsi sosial siyasətin həm də mənəvi-əxlaqi normalara söykəndiyinin təcəssümüdür.

Prezident İlham Əliyevə ölkəmizdə sosial təminat sisteminin inkişafı barədə məlumat verən nazir Sahil Babayev dedi:

-Cənab Prezident, Sizin siyasətinizin ana xətti olan sosial təminat sistemi daim inkişaf edir. Ötən dövr ərzində təkcə sosial ödənişlər 1 milyard 800 milyon manat artıb. Pensiya ödənişləri 36 faiz, müavinət ödənişləri 120 faiz, təqaüd ödənişləri 3,5 dəfə artmışdır. Bu da əlbəttə ki, orta aylıq göstəricilərə çox ciddi təsir edib. Azərbaycan nadir ölkələrdən biridir ki, cəmi 3 il ərzində orta pensiya 60 faiz artıb. Tapşırığınıza əsasən postmüharibə dövründə müharibə iştirakçıları ilə aktiv fəaliyyətimiz davam edir. Artıq 20 mindən çox şəxsi həm sosial ödənişlər, həm psixoloji dəstək, həm də reabilitasiya vasitələri ilə əhatə etmişik. Bu şəxslərə artıq 1200 reabilitasiya vasitəsi təqdim etmişik. Məşğulluq proqramlarımız isə 3700 şəxsi əhatə edib.

"Bir pəncərə" sistemi üzrə vətəndaşlara tam şəffaf, sadə və əlçatan prosedurlar təklif etməyə imkan verən mərkəz bu sahədə ölkəmizin yeni brendini formalaşdırır. Bundan əlavə, onu da qeyd etməliyik ki, ötən dövrdə əhalinin sosial təminatının daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər görülüb.

Mərkəzdə 230 nəfərdən çox əməkdaş, habelə "Könüllü DOST" proqramı üzrə 50 nəfər könüllü gün ərzində orta hesabla 800 vətəndaşın qəbulunu həyata keçirəcək. Burada çalışanların əksəriyyəti gənclərdən ibarətdir, bu isə daxili intellektual resursları üzə çıxarmağa kömək etməklə yanaşı, xidmətin yüksək keyfiyyətlə icrasında da müstəsna rol oynayır.

"DOST" Mərkəzinin tərkibindəki "Çağrı Mərkəzi" ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. "ART School" - "İnklüziv İncəsənət Məktəbi" isə ildə orta hesabla 150-200 əlilin təlimlərdən keçməsinə imkan verəcək. Bütün bunlar dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması kimi sosial islahatlar proqramının əsas hədəflərinin real müstəviyə uğurla proyeksiya olunduğu deməkdir.

Diqqətə çatdırılıb ki, indiyədək DOST mərkəzlərində xidmət göstərilən 330 mindən çox şəxsin məmnunluq dərəcəsi 97,2 faiz təşkil edir. Binəqədi rayonunda, yeddi min kvadratmetr ərazini əhatə edən 4 saylı DOST Mərkəzinin fəaliyyətə başlaması da bu prosesə mühüm töhfə verəcək, daha geniş miqyasda keyfiyyətli sosial xidmətlərin həyata keçirilməsinə imkan yaradacaq.






Gələcək planlar barədə danışan nazir qeyd edib ki, yaxın vaxtlarda Abşeronda növbəti DOST Mərkəzi açılacaq, Quba, Sabirabad, Gəncə, Sumqayıtda da artıq bu istiqamətdə iş gedir. Ümumilikdə 16 regional mərkəzin yaradılması planlaşdırılır. Əlbəttə, bu sahədə önəmli prioritetlərdən biri də işğaldan azad olunmuş ərazilərimizlə bağlıdır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq artıq Şuşada DOST Mərkəzinin yaradılması ilə bağlı işlərə başlanılıb.

## C.Ə.Əliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyənin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Cəmil Əziz oğlu Əliyev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 mart 2021-ci il*

## M.M.Pənahovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Məzahir Məhəmməd oğlu Pənahov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 mart 2021-ci il*

## "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 289 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 289 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 177; 2016, № 2 (II kitab), maddə 342; 2020, № 5, maddə 601) 3-cü və 4-cü hissələri aşağıdakı redaksiyada verilsin:

"3. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

3.1.2. Cəmiyyətin Müşahidə Şurasının və icra orqanının üzvlərinin, o cümlədən onların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan İnvestisiya Holdinqinə:

3.2.1. Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiq edilməsi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

3.2.2. Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

3.2.3. Cəmiyyətin dividend siyasətinin təsdiq edilməsi;

3.2.4. Cəmiyyətin qiymətli kağızlarının buraxılması barədə qərar qəbul edilməsi;

3.2.5. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi.

4. Müəyyən edilsin ki:

4.1. Cəmiyyətin fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

4.2. Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətləri aşağıdakılardır:

4.2.1. Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;

4.2.2. Cəmiyyətin xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək;

4.2.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına dair ümumi yığıncağa təkliflər vermək;

4.2.4. aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdləri təsdiq etmək;

4.2.5. mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, Cəmiyyətin aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılıq vermək;

4.2.6. Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları, habelə filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək;

4.2.7. Cəmiyyətin korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək;

4.2.8. Cəmiyyətin Audit Komitəsini və digər komitələrini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.2.9. bu Sərəncamın 3-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Cəmiyyətin Nizamnaməsi və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan İnvestisiya Holdinqi:

3.1. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin idarə olunmasına dair korporativ idarəetmə standartlarını, habelə onun idarəetmə orqanlarının üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi sistemini altı ay müddətində təsdiq etsin;

3.2. beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, mövcud müqavilə öhdəliklərinə riayət olunması şərtilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin nəticələrinin diaqnostikasının aparılmasını dörd ay müddətində təmin edib nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamın 3.2-ci bəndində nəzərdə tutulan diaqnostika başa çatdıqdan sonra onun nəticəsindən asılı olaraq, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yeni nizamnaməsinin və strukturunun layihəsini iki ay müddətində hazırlayıb razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 mart 2021-ci il*

# “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

**Elnur Əliyev** - Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini

**Müşahidə Şurasının üzvləri**

**Məmməd Abbasbəyli** - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti rəisinin müavini

**Samir Məmmədov** - Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aparatının rəhbəri

**Zaur Qurbanov** - Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini

**Vüqar Məcidli** - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 mart 2021-ci il*

# Türkiyənin Əmanət Sığortası Fondu sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub



Qardaş Türkiyə ilə bütün sahələrdə olduğu kimi, əmək və məşğulluq, sosial müdafiə sahələrində də əməkdaşlıq ildən-ilə genişlənir.

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Türkiyə Respublikasının Əmanət Sığortası Fondunun sədri Mühiddin Gülalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə nazirlikdə keçirilən görüşdə bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nümayəndə heyətinə Türkiyə Prezidentinin maliyyə ofisinin müdiri Göksel Aşan, Türkiyə Əmanət Sığortası Fondunun Himayəçilik Şurasının üzvləri, iş adamları, həmçinin Erciyes Anadolu Holdingin baş icraçı direktoru Alparslan Baki Ertekin, iş adamları və başqaları daxildir. Görüşdə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral da iştirak edib.

S.Babayev Azərbaycan və Türkiyə arasında ikitərəfli əlaqələrin davamlı, sabit və uzunmüddətli inkişafında iki qardaş ölkənin dövlət başçılarının birgə səylərinin mühüm rola malik olduğunu vurğulayıb. O, Vətən müharibəsində Azərbaycanın əldə etdiyi möhtəşəm tarixi Zəfəri, torpaqlarımızın Ermənistanın işğalından azad olunduğunu qeyd edib. Təcavüzkar Ermənistan tərəfindən dağıdılmış həmin ərazilərdə artıq böyük quruculuq işləri aparıldığını diqqətə çatdırıb.

Müharibə zamanı Türkiyənin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyi vurğulayan nazir Prezident İlham Əliyevin göstərişi ilə ölkəmizdə postmüharibə dövründə həyata keçirilən çevik sosial dəstək tədbirlərindən bəhs edib. S.Babayev həmin tədbirlərin artıq 20 mindən çox şəxsi əhatə etdiyini bildirib. Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramının genişləndiyi, bu kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üçün digər istiqamətlərdə görülən işlər, ölkəmizdə aparılan sosial islahatlar, DOST konsepsiyası, eləcə də bu gün Bakıda daha bir DOST mərkəzinin açıldığı barədə məlumat verib.

M.Gülal Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi Qələbədən, öz torpaqlarını azad etməsindən sevinc və iftixar hissi keçirdiklərini bildirib. Azərbaycanın Türkiyə üçün qardaş ölkə olduğunu deyib. Ölkələrimiz arasında əlaqələrin daim inkişaf etməsindən məmnunluğunu ifadə edib.

Görüşdə Türkiyə ilə sosial sahədə əməkdaşlıq təcrübəsindən bəhs olunub, gələcək birgə işlərə, həmçinin şəhid ailələrinin məişət şəraitlərinin yaxşılaşdırılmasına dəstək işlərində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Aralıq Dənizi Ölkələri Parlament Assambleyasının və TÜRKPA-nın ilk birgə videokonfransı keçirilib

Martın 30-da Aralıq Dənizi Ölkələri Parlament Assambleyasının (ADÖPA) və Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) “Dayanıqlı iqtisadi dirçəlişin formalaşdırılmasında bölgələrarası əməkdaşlıq” mövzusunda birgə onlayn konfransı keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, 2020-ci ildə bu iki qurum arasında ortaq maraq kəsb edən istiqamətlər üzrə əməkdaşlığın təşviqi üçün imzalanmış Anlaşma Memorandumundan irəli gələn məsələləri özündə ehtiva edən bu tədbirdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏTPA) nümayəndələri də iştirak ediblər. Beynəlxalq konfransın məqsədi hər iki bölgədə iqtisadi canlanmanı sürətləndirmək üçün siyasət və qanunvericilik sahələrində təcrübə mübadiləsinin həyata keçirilməsi idi.

Milli Məclisin deputatı, TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq münasibətlər Komissiyasının üzvü Cavanşir Feyziyev Prezident İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə 2020-ci il aprelin 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının(TDƏŞ) “COVID-19 pandemiyası ilə mübarizədə həmrəylik və əməkdaşlıq” mövzusunda fövqəladə Zirvə görüşü keçirildiyini xatırladaraq Azərbaycan rəhbərliyinin pandemiyanın yaratdığı sosial-iqtisadi problemlərin həllində göstərdiyi səyləri konfrans iştirakçılarının diqqətinə çatdırıb. Deputat Prezident İlham Əliyevin təşəbbüsü əsasında Qoşulmama Hərəkatının sədri qismində bu quruma üzv ölkələrin dövlət başçılarının COVID-19 pandemiyasına qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşünün təşkil edildiyini və BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirildiyini vurğulayaraq, pandemiya dövründə Azərbaycanın beynəlxalq əməkdaşlıqla bağlı təşəbbüslərindən bəhs edib.

Pandemiyanın iqtisadiyyata təsirindən danışan Cavanşir Feyziyev Azərbaycan iqtisadiyyatının 2020-ci ildə təxminən 4 faiz azaldığını, ancaq bununla belə, qeyri-neft sənayesində, elektrik enerjisi, qaz istehsalında, kənd təsərrüfatı və rabitə sahələrində artımın olduğunu diqqətə çatdırıb.

Sonra konfransda məhdudlaşdırıcı tədbirlərdən qeyri-mütənasib olaraq təsirlənmiş özəl sektorun, xüsusən də, kiçik və orta biznesin qarşılaşdığı problemlərin aradan qaldırılması üçün təcrübə mübadiləsi, milli iqtisadiyyatların ekoloji və rəqəmsal transformasiyasına dair fəaliyyət planlarının paylaşılması, aşağı karbonlu və dairəvi iqtisadi modellərə keçid, hər iki bölgədə İKT imkanlarının artırılması, həmçinin mövcud sağlamlıq böhranının aradan qaldırılmasında peyvənd əməkdaşlığının rolu, peyvəndin milli və regional iqtisadiyyatlara müsbət təsirləri barədə müzakirələr aparılıb.

# *Ceyhun BAYRAMOV:* “Azərbaycan İstanbul Prosesinə Əfqanıstanda sülh, barışıq, təhlükəsizlik və iqtisadi inkişafa nail olmaq üçün dəyərli bir mexanizm kimi baxır”

Bu Nazirlər Konfransı İstanbul Prosesi çərçivəsində görülən mühüm işləri qiymətləndirmə, Əfqanıstanın və bütün Asiyanın qəlbi bölgəsinin üzləşdiyi ciddi problemlərin həlli istiqamətində ortaq səylərin gələcək istiqamətlərini müəyyənləşdirmək baxımından yaxşı fürsət təqdim edir. Buna görə də hazırkı konfransı qonşuları ilə sülh şəraitində olan Əfqanıstanın təhlükəsizliyinin və çiçəklənməsinin təmin edilməsi ortaq məqsədimizə çatmaq üçün bütün iştirakçı ölkələrin, eləcə də dəstək verən dövlətlərin və beynəlxalq təşkilatların güclü öhdəlikləri əlaməti olaraq qiymətləndiririk.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov “Asiyanın Qəlbi - İstanbul Prosesi”nin 9-cu Nazirlər Konfransında çıxışı zamanı söyləyib.

Nazir deyib: “Biz Əfqanıstanın sabitləşməsini, dinc yolla yenidən qurulmasını və inkişafını ikitərəfli səylər və çoxtərəfli platformalarda fəal iştirak yolu ilə dəstəkləməyə sadiq qalırıq.

Bu anlayışa əsaslanaraq biz Əfqanıstan daxili sülh danışıqlarını yaxından izləyirik və ümid edirik ki, bu prosesin nəticəsində ölkədə Əfqanıstanın suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə tam hörmət əsasında davamlı sülh və təhlükəsizlik bərqərar olacaq.

Azərbaycan İstanbul Prosesinə Əfqanıstanda sülh, barışıq, təhlükəsizlik və iqtisadi inkişafa nail olmaq üçün dəyərli bir mexanizm kimi baxır. Azərbaycan mövcud problemlərin həlli istiqamətində səylərində Əfqanıstanın ilk və ən fəal dəstəkçilərindən biridir. 2012-ci ildə bu Prosesə qoşulduqdan bəri biz bu çoxtərəfli platformada fəal iştirak edirik. Azərbaycan iki Etimad Quruculuğu Tədbirində, yəni Regional İnfrastrukturlar və Narkotiklərə qarşı mübarizəyə dair Etimad Quruculuğu Tədbirlərində müvafiq olaraq Türkmənistan və Rusiya Federasiyası ilə birlikdə aparıcı ölkə qismində çıxış edərək İstanbul Prosesini daha da irəli aparmağa sadiq qalır”.

C.Bayramov bildirib ki, Etimad Quruculuğu Tədbirləri nəticələrə yönəlik və ehtiyaclara əsaslanan əməkdaşlığı təşviq etmək üçün dəyərli bir mexanizmdir. Bu baxımdan, konkret layihələr vasitəsilə Etimad Quruculuğu Tədbirlərinin praktiki olaraq həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir. Əfqanıstanın rifahı və tərəqqisi, iqtisadi inkişaf və regional əməkdaşlıq bir-biri ilə əlaqəlidir və bölgədəki ümumi təhlükəsizlik mühitindən asılıdır. Biz o fikirdə qalırıq ki, Əfqanıstanın yenidən qurulmasına və iqtisadi inkişafına diqqət yetirərkən, bugünə qədər əldə olunan irəliləyişi qorumaq üçün bu ölkənin üzləşdiyi təhlükəsizlik problemlərini həll etməyə davam etməyimiz vacibdir. Bu səbəbdən terrorizm, zorakı ekstremizm və separatizmin bütün formaları və təzahürləri ilə yaratdığı təhlükəsizlik təhdidlərinə qarşı birgə səylərin davam etdirilməsi və bu xüsusda regional əməkdaşlığın genişləndirilməsi son dərəcə vacibdir.

Nazir diqqətə çatdırıb ki, Azərbaycan təhsil və təlim, infrastrukturun inkişafı, investisiya və maliyyə yardımı sahələrində praktiki töhfələri artıraraq, Əfqanıstanı özünə güvənmə yolunda dəstəkləməyə sadiq qalır. Azərbaycan təcrübəsini ikitərəfli kanallar vasitəsilə də Əfqanıstanla bölüşür və yaxşı idarəetmə, ictimai xidmətlərinin göstərilməsi (ASAN), hərbi, hüquq mühafizə və minalara qarşı mübarizə sahələrində təlim yardımları göstərir.

Şəffaflıq, rüşvət və korrupsiyaya qarşı tolerantlıq göstərməyən Azərbaycan Vətəndaşlara Xidmət və Sosial İnnovasiya Dövlət Agentliyi - “ASAN xidmət” Əfqanıstanla fəal əməkdaşlıq edir. Bu əməkdaşlıq, vətəndaşlara dövlət və özəl xidmətlər göstərən “bir pəncərə” mərkəzlərini quraraq Əfqanıstanın dövlət xidmətlərinin yaxşılaşdırılmasına yönəlib.

Bildirilib ki, Azərbaycan, eyni zamanda, Əfqanıstanla regional iqtisadiyyata inteqrasiyanı asanlaşdırmaq və regional əlaqələri genişləndirərək qonşuları və digər ölkələr ilə ticarəti canlandırmaq istiqamətində əməkdaşlıq edir.

“Azərbaycanın təşəbbüsü ilə davam edən regional bağlılıq layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xətti, yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycan və İranın dəmir yolu şəbəkələrini birləşdirən Xəzər dənizinin sahilindəki logistika mərkəzi kimi əsas strateji magistral komponentlər, Şərq-Qərb və Şimal-Cənub oxları boyunca çox modullu imkanlara malik transregional infrastrukturun inkişafında keyfiyyətcə yeni bir nailiyyətdir. Bu layihələr Əfqanıstanın dünya bazarına çıxışını asanlaşdıracaq və regionda yük və konteynerləri daha qısa, daha sürətli, daha səmərəli və qənaətli şəkildə idarə edə biləcək əlaqələndirməni təmin edəcəkdir” deyən Ceyhun Bayramov vurğulayıb ki, Əfqanıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və Türkmənistan arasında “Lapis-Lazuli” marşrutu üzrə saziş Əfqanıstanı birbaşa Avropa ilə birləşdirəcək böyük beynəlxalq ticarət və nəqliyyat dəhlizi razılaşmasıdır. Bu, Əfqanıstanın Avrasiya üzərindən ticarəti genişləndirmək üçün infrastrukturun yaxşılaşdırılması və yaradılması yolu ilə əlaqələndirmə səylərində mühüm mərhələdir. Bu sazişin bir hissəsi olaraq, Azərbaycan Əfqanıstana tranzit və nəqliyyatla bağlı çoxsaylı seçimlər təqdim edərək töhfəsini verməkdən məmnundur.

Nazir deyib ki, Əfqanıstanın regional ticarət, tranzit və nəqliyyat üçün mühüm bir mərkəz kimi rolunu nəzərə alaraq, Əfqanıstan üzrə Regional İqtisadi Əməkdaşlıq Konfransının (RECCA) bu coğrafi məkanın faydalarının bölüşdürülməsində və bu ölkədə davamlı inkişafın dəstəklənməsində rolu çox vacibdir.

Sonda nazir Ceyhun Bayramov Azərbaycanın Əfqanıstanın suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə davamlı dəstəyini bir daha qeyd edib, Milli Birlik Hökumətinə dost və qardaş Əfqanıstan xalqının vahid, dinc və firavan gələcəyini təmin etmək səylərində uğurlar arzulayıb.

# Azərbaycanın xarici işlər naziri Düşənbədə bir sıra görüşlər keçirib

Martın 30-da Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilən “Asiyanın Qəlbi - İstanbul Prosesi” 9-cu Nazirlər Konfransı çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zəriflə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər Azərbaycan və İran arasında mövcud olan ikitərəfli əməkdaşlıq münasibətlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Tərəflər Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının cari ildə keçirilmiş sonuncu iclasının nəticələrini yüksək qiymətləndiriblər.

Nazirlər, həmçinin regional təhlükəsizlik məsələləri, xüsusilə də 44 günlük Vətən müharibəsindən sonra bölgədə mövcud olan vəziyyət, imzalanmış üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yenidənqurma və bərpa işləri ilə bağlı da fikir mübadiləsi aparılıb. Nazir Məhəmməd Cavad Zərif qeyd edib ki, İran şirkətləri azad olunmuş ərazilərin minalardan təmizlənməsi və yenidənqurma işlərində iştirak etməyə hazırdır.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Düşənbə şəhərində keçirilən “Asiyanın Qəlbi - İstanbul Prosesi” 9-cu Nazirlər Konfransı çərçivəsində martın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Qazaxıstanın xarici işlər naziri Muxtar Tleuberdı ilə görüşü olub.

Görüşdə nazir Ceyhun Bayramov ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək bu əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcud olduğunu qeyd edib. İki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi baxımından Birgə Hökumətlərarası Komissiyanın iclasının keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan və Qazaxıstan tərəfindən öz ərazilərində müasir nəqliyyat-tranzit infrastrukturlarının yaradıldığını və bunun artıq öz əhəmiyyətli nəticəsini verdiyini qeyd edən nazir Ceyhun Bayramov bu istiqamətdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib.

Nazir Muxtar Tleuberdı hər iki ölkə prezidentləri arasında münasibətlərin yüksək səviyyədə olduğunu və bunun ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli rol oynadığını vurğulayıb. Qazaxıstanın XİN başçısı iqtisadi sahədə əlaqələrin inkişafına toxunaraq Hökumətlərarası Birgə Komissiyasının iqtisadi əlaqələrin bütün sahələrini əhatə etdiyi vurğulayıb.

Nazirlər gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə bir sıra tədbirlərin keçirilməsinə dair fikir mübadiləsi aparıblar.

Görüş zamanı nazir Ceyhun Bayramov həmkarına 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı Azərbaycan tərəfindən görülən işlərlə bağlı məlumat verib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

* * *

Martın 30-da Tacikistanın paytaxtı Düşənbədə keçirilən “Asiyanın Qəlbi - İstanbul Prosesi” 9-cu Nazirlər Konfransı çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Pakistanın xarici işlər naziri Şah Mahmud Qureyşi ilə görüşüb.

Görüşdə tərəflər Azərbaycan ilə Pakistanın ikitərəfli əlaqələrlə bağlı məsələləri, o cümlədən Azərbaycanın Dövlət Neft Şirkəti ilə Pakistanın şirkətləri arasında əməkdaşlığım perspektivlərini, mülki aviasiya sahəsində ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Tərəflər Azərbaycan ilə Pakistan arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edərək, bu xüsusda hökumətlərarası ticarət və iqtisadiyyat komissiyasının Bakıda keçiriləcək növbəti iclasını vurğulayıblar.

Nazirlər həmçinin parlamentlərarası əlaqələrin inkişafının əhəmiyyətini qeyd ediblər.

Görüş zamanı, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 30-da Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilən “Asiyanın Qəlbi - İstanbul Prosesi” 9-cu Nazirlər Konfransı çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qəni ilə görüşüb.

Əfqanıstan Prezidenti Azərbaycanı böyük Qələbə münasibətilə təbrik edib, bu Zəfərin beynəlxalq hüququn qalibiyyəti olduğunu vurğulayıb. Bu xüsusda, Məhəmməd Əşrəf Qəni Azərbaycan Prezidenti İlham Əliyevə xüsusi təbriklərini çatdırıb.

Prezident Məhəmməd Əşrəf Qəni Azərbaycanın işğaldan azad edilmiş ərazilərində törədilmiş dağıntıların miqyasından xəbərdar olduğunu və bunun təəssüf doğurduğunu qeyd edib.

Ceyhun Bayramov Əfqanıstan Prezidentinə təşəkkürünü bildirərək Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını qarşı tərəfin diqqətinə çatdırıb.

Nazir Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən yenidənqurma və bərpa işlərindən bəhs edib, yaxın gələcəkdə bu ərazilərə həyatın geri qayıdacağını vurğulayıb.

Tərəflər Azərbaycan ilə Əfqanıstan arasında ikitərəfli münasibətlərin inkişafını məmnunluqla qeyd ediblər. “ASAN xidmət”in Əfqanıstanda fəaliyyətə başlaması və gələcəkdə bu xidmətin daha geniş sahələri əhatə etməsi niyyəti, ADA Universitetində gənc əfqan diplomatlar üçün təlimlərin davam etdirilməsi, habelə Lapis-Lazuli beynəlxalq nəqliyyat dəhlizinin əhəmiyyəti kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Tacikistana səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramovun AQEM Katibliyinin icraçı direktoru Kairat Sarıbay ilə görüşü keçirilib.

Görüşdə icraçı direktor Azərbaycanın ilk gündən etibarən AQEM çərçivəsində fəal iştirakını qeyd edərək bu xüsusda təşəkkürünü ifadə edib. Azərbaycanın AQEM çərçivəsində nəqliyyat dəhlizlərinin təhlükəsizliyi və səmərəli inkişafı üzrə etimad quruculuq tədbirləri üzrə əlaqələndirici rolu məmnunluqla qeyd olunub.

Kairat Sarıbay Azərbaycanın regional əməkdaşlıq və təhlükəsizliyin təmin olunmasında vacib rol oynadığını vurğulayıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın ilk gündən AQEM təşəbbüsünü dəstəklədiyini və bura qoşulan ilk dövlətlərdən biri olduğunu qeyd edib, sözügedən platformanın işində ölkəmizin yaxından iştirak etdiyini vurğulayıb. Nazir ölkəmizin nəqliyyat dəhlizlərinin təhlükəsizliyi və səmərəli inkişafı üzrə etimad quruculuq tədbirləri çərçivəsində ölkəmizin əlaqələndirici rolunun davam etdiriləcəyini və qarşıdan gələn müddət ərzində bu xüsusda növbəti tədbirin keçiriləciyini bildirib.

Görüşdə həmçinin tərəflər digər regional məsələlər ətrafında, xüsusilə də post münaqişə mərhələsində bölgədə yaranan yeni əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar.

# Gənclər işğaldan azad olunmuş ərazilərin ekoloji qiymətləndirilməsində iştirak edəcək

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə “Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı” adlı layihəyə start verilir.

IDEA İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, ölkə miqyasında nəzərdə tutulan fəaliyyət proqramı üzrə Ermənistanın 30 illik işğalı nəticəsində təbiətimizə vurulan ziyan araşdırılacaq, ərazilərin bərpası üçün beynəlxalq təcrübə öyrəniləcək və ekoloji ziyanın miqyasının ölçülməsi üçün metodologiya və qaydalar hazırlanacaq.

İştirakçı qismində seçilən gənclər həmin metodologiya və qaydaların tətbiq olunması üçün təlimlərdə iştirak edəcəklər. Gənclər işğaldan azad olunan ərazilərin real ekoloji vəziyyəti ilə tanış olacaq, müxtəlif vasitələrlə yerli və beynəlxalq ictimaiyyəti törədilən ekosid faktlarına dair məlumatlandıracaqlar.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Gənclər Fondu tərəfindən həyata keçirilən bu layihə nəticəsində, gənclərin iştirakı ilə işğaldan azad olunmuş ərazilərin ekoloji durumunun qiymətləndirilməsi aparılacaq.

Bu unikal imkandan yararlanmaq üçün ətraf mühit sahəsində təhsil və təcrübəsi olan gənclər IDEA İctimai Birliyinə müraciət edə bilərlər. Gənc ekoloqlar aşağıdakı keçidə daxil olmaqla 2021-ci il 20 aprel tarixinədək özləri barədə lazımi məlumatları təqdim edə bilərlər:

https://docs.google.com/forms/d/e/1FAIpQLSdLV_SKVgyzqQBOHLTeBpiUsuEY29k3tV93bFS5C42ouidPcA/viewform

Müraciətlər əsasında seçilmiş namizədlər daha sonra müsahibədən keçdikləri təqdirdə layihədə iştirak imkanı qazanacaqlar.

Əlavə sual olduqda, info@ideacampaign.org elektron poçt ünvanı və ya +99412 497 63 16 əlaqə nömrəsi vasitəsilə IDEA İctimai Birliyinə müraciət edilə bilər.

AZƏRBAYCAN www.azerbaijan-news.az

Əvvəli 1-ci səh.



# İnformasiya savaşının sərkərdəsi

Prezident İlham Əliyevin müsahibə verdiyi xarici KİV-in arasında Rusiyanın "Rossiya-1", "Pervıy", RBK televiziya kanalları, "Ria Novosti", "TASS" və "İnterfaks" agentlikləri, Türkiyənin "TRT Haber", CNN-Türk, "Haber Global", "Haber Türk", NTV, "A Haber" televiziyaları, Fransanın "Sky News", "France 24" televiziyaları, "Figaro" qəzeti, Almaniyanın ARD televiziyası, Yaponiyanın "Nikkei" qəzeti, ABŞ-ın "Fox News" televiziyası, İtaliyanın Rai-1 televiziyası və "La Repubblica" qəzeti, İspaniyanın EFE informasiya agentliyi, habelə dünyada yüz milyonlarla izləyiciləri olan "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Euronews", "CNN International", "BBC News" televiziya kanalları kimi tanınmış media orqanları var.

Qətiyyətli, nüfuzlu siyasi rəhbərə və dövlət başçısına beynəlxalq marağın yüksək olması təbiidir. Bu marağın müharibə zamanı xüsusilə yüksək olması tam məntiqlidir. Bəşər tarixinin son onillikləri müharibələrlə doludur. Lakin heç bir dövlət başçısı həmin müharibə zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Bu baxımdan İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış media qurumlarının müraciət etməsi, ilk növbədə, Azərbaycan Prezidentinin nüfuzlu lider olmasından irəli gəlir.

Prezident İlham Əliyev fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında bu müsahibələrin əhəmiyyəti barədə deyib: "Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqeyimizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarım ümumi qələbəmizdə böyük rolu olmuşdur".

Müsahibələrin hamısını diqqətlə oxuyaraq əsasən üç istiqamətdə qruplaşdırdım: Qərb KİV-inə verilən müsahibələr, Türkiyə televiziyalarına verilən müsahibələr, Rusiya KİV-inə verilən müsahibələr.

Aydın oldu ki, əksər Qərb KİV-nin əməkdaşları Prezident İlham Əliyevə ünvanladıqları suallar zamanı erməni lobbisinin sifarişlərini yerinə yetiriblər. Bəzi KİV-in suallarının tamamilə eyniyyət təşkil etməsi, bəzi sualların daha çox ittihama bənzəməsi, bəzi suallardan düşmənin məğlubiyyət ruhunun hiss olunması, bəzi suallarda Azərbaycana qarşı ənənəvi qarayaxmanın yer alması göstərirdi ki, bu sualların sifarişləri dünya erməniliyinin və erməni lobbisindən gəlir.

İlk olaraq Qərb ölkələrini təmsil edən KİV-ə müsahibələri zamanı Prezident İlham Əliyevin erməni yalanlarına vurduğu tutarlı zərbələr, Azərbaycan həqiqətlərinin bu KİV vasitəsilə beynəlxalq ictimaiyyətə çatdırılması barədə bəhs etmək istəyirəm.

## Azərbaycanı müharibəyə birinci başlamaqda ittiham etmək cəhdi baş tutmadı

Başlayaq Azərbaycana qarşı ittihamlardan. Bu müsahibələrlə tanış olarkən gördük ki, həmin KİV müharibəni birinci hansı tərəfin başlanması məsələsinə aydınlıq gətirməkdən sualların birbaşa Azərbaycanın hücum edən tərəf olduğunu bildirirlər. Məsələn, ABŞ-ın "Fox News" televiziya kanalının əməkdaşının ilk suallarından biri belədir: "Bir çox məlumatlara görə, sentyabrın 27-də - müharibənin bu ən son mərhələsində Dağlıq Qarabağ regionunda nisbi sülh var idi, müəyyən növ diplomatik çərçivə var idi, insanlar da bu münaqişənin həll edilməsi ilə bağlı ideya var idi, lakin Sizin qüvvələr döyüşlərə başladı. Nəyə görə Siz indi hərəkətə keçməyə qərar verdiniz?" Eyni məzmunlu sualı Fransanın "Figaro" qəzeti ünvanlayır: "Cənab Prezident, birinci sualım belədir, nəyə görə Siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hücumun siyasi məqsədi nədir?"

Yeni göründüyü kimi, jurnalist aldığı təlimata uyğun olaraq sual verməkdən birbaşa ittihama keçir və bu həssas və incə məsələdə "fürsət" tapıb Azərbaycanın İkinci Qarabağ müharibəsində hücum edən tərəf olduğunu "dünyaya göstərməkdir". Amma İlham Əliyev tədbirli və hazırlıqlı siyasətçidir. Jurnalistin ona bu cür suallar verib "istədiyi" cavabı alması mümkün deyil. Ona görə Prezident İlham Əliyev "Fox News" televiziyasının əməkdaşını bu barədə suala cavabının ilk cümləsindən məyus edir: "Sentyabrın 27-də döyüşlərə başlayan Azərbaycan olmamışdır. Bu vaxta kimi heç bir ölkənin rəsmi nümayəndəsi bu məsələni bizim qarşımızda qaldırmayıb. Sentyabrın 27-də hücuma keçən Ermənistan olmuşdur və məqsəd danışıqlar prosesini tamamilə pozmaq idi".

"Figaro" qəzeti də bu suala istədiyi cavabı ala bilmir: "Biz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməmişik, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçmişdir. Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olmuşdur".

## Ölkəmizi dünyaya xristian dininin düşməni kimi tanıtmaq planı da iflasa uğradı

Bu müsahibələrdə Azərbaycana Şuşadakı kilsəyə raket zərbəsi endirilməsi məsələsi ilə də bağlı qara yaxılmasına cəhd edildi. Lakin Prezident İlham Əliyev Qərb KİV-inin bu cəhdlərinin qarşısını müdrikcəsinə, faktlarla aldı. Məlum olduğu kimi, müharibə günlərində Şuşadakı kilsəyə raket zərbəsi endirilmişdi. Lakin araşdırmalar, raket zərbəsi nəticəsində kilsənin binasına dəyən ziyan və daxili interyerinin vəziyyəti göstərirdi ki, bu hadisə əslində Ermənistanın özü tərəfindən törədilib və məqsəd Azərbaycana qara yaxmaqdır. Amma Qərb KİV-inin əməkdaşları Azərbaycan Prezidentindən ordumuzun belə bir zərbəni endirib-endirmədiyini soruşmurdular və birbaşa ittihamla çıxış edirdilər.

Azərbaycanı mülki erməni əhalini atəşə tutmaqda ittiham edən "Sky News" televiziyasının müxbiri deyirdi: "Lakin Siz regionun paytaxtı olan Stepanakertə qarşı elə bunu edirsiniz. Siz bunu Şuşaya qarşı edirsiniz, hansı ki dünən bir yox, iki dəfə atəşə tutulmuşdur. Oradakı kilsəyə iki dəfə zərbə vurulmuşdur və açıq-aydın idi ki, orada mülki şəxslər və jurnalistlər özlərinə sığınacaq tapmışdılar". Yaxud "BBC News" televiziyası: "Prezident Əliyev, dinə gəldikdə, Ermənistanda kilsəyə hücum olub". "France 24" televiziya kanalının da bu barədə sualı məzmunca o birilərindən fərqlənmirdi: "Bəs Dağlıq Qarabağdakı kilsələrin bombardman edilməsi görüntüləri barədə nə deyə bilərsiniz? Əlbəttə ki, onlar hərbi hədəflər deyil".

Cənab İlham Əliyev bu sualların hamısını dəqiqliklə cavablandırdı. Elə bu cavablarla dünya erməniliyinin Azərbaycan haqqında yaratmaq istədiyi "qeyri-sivil dövlət təsəvvürü elə ilk cəhddə iflasa uğradı. Dünya erməniliyi kilsə məsələsində Azərbaycanı dünyaya xristian dininin düşməni kimi tanıtmaq istəyirdi. Amma elə ilk addımda onların bu riyakar planı uğursuzluğa düçar oldu. "France 24" televiziya kanalına müsahibəsində İlham Əliyev bütün dünyaya əsl həqiqətləri çatdıraraq dünya erməniliyinin bütün iddialarını darmadağın etdi: "Bəli, siz haqlısınız. Biz bu məsələni araşdırırıq. Onu qeyd etmək istəyirəm ki, Azərbaycan dini tolerantlıq səviyyəsi çox yüksək olan bir ölkədir və bu, bütün aparıcı beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qeyd olunmuşdur. Zati-müqəddəsləri, Vatikanın rəhbəri, Roma Papası Fransisk Bakıya səfəri zamanı açıq şəkildə demişdir ki, Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun səviyyəsi çox yüksəkdir. Siz yəqin ki, Bakının mərkəzində olan, tərəfimizdən bərpa edilmiş erməni kilsəsini görmüsünüz. Biz onu erməni xalqının mirası kimi qoruyuruq. Biz bu kilsədə erməni dilində 5000-dən artıq qədim kitab saxlayırıq. Lakin Ermənistan bizim məscidlərimizə nə edib? Onlar Ağdamın, Füzulinin və Şuşanın məscidlərinə nə ediblər? Demək olar ki, onlar nəinki onları dağıdıblar, orada heyvan saxlayırlar. Onlar orada donuz saxlayırlar və bununla təkcə bizim deyil, bütün müsəlmanların hisslərini təhqir edirlər".

## Bizim tərəfdə xarici muzdlu döyüşçülərin olduğunu deyənlər heç bir sübut və dəlil ortaya qoya bilmədilər

Azərbaycana ünvanlanan başqa bir ittiham respublikamızın guya xarici ölkələrdən muzdlu döyüşçüləri cəlb etməsi barədə idi. Bununla da məqsəd Azərbaycanın terrorçu təşkilatlarla əməkdaşlıq etdiyini göstərmək idi. Bu məsələni hətta Fransa Prezidenti E.Makron da iddia etmiş, lakin ortaya bir fakt qoya bilməmişdi. Ümumiyyətlə, Fransa Prezidentinin hərbi əməliyyatların başladığından bəri tutduğu mövqe və verdiyi bəyanatlar bu ölkənin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına zidd olmaqla neytral vasitəçilik missiyasının tələblərinin kobudcasına pozulması idi. Makronun heç bir diplomatik və vasitəçilik missiyasına cavab verməyən mövqeyi həm də Fransada qarşıdan gələn seçkilərlə bağlıdır və bu ölkədə yaşayan erməni diasporunun səslərinin qazanılmasına hesablanıb. Bu baxımdan Makron müharibə günlərində vasitəçiliklə deyil, seçki kampaniyası ilə məşğul oldu, Azərbaycana qarşı ittihamlarla çıxış etməklə Fransadakı erməni seçicilərinin səsi uğrunda mübarizə apardı.

Azərbaycanın II Qarabağ müharibəsində muzdlu döyüşçülərdən istifadə etməsini iddia edənlərdən birincisi də E.Makron olmuşdu. Lakin o, bu məsələdə aşağı səviyyəli sarı mətbuatın yaydığı feyk xəbərlərə istinad etmiş və heç bir fakt göstərə bilməmişdi. Sarı mətbuatın məlumatının Fransa kimi dövlətin başçısının dilindən səslənməsi isə bu ölkəyə başucalığı gətirmədi.

Prezident İlham Əliyevin xarici KİV-ə müsahibələri zamanı bu məsələni ilk dəfə ötən il oktyabrın 9-da "CNN International" televiziya kanalı gündəmə gətirmişdi. Təsadüfi deyil ki, jurnalistin ilk sualı da bu mövzuda idi. Hər bir jurnalistin ən böyük silahı faktdır. Amma "CNN International" kanalının bu barədə sualının məzmunundan göründü ki, jurnalist heç bir fakta istinad etmir və yalnız proseslərdən ümumiyyətlə kənarda olan Ermənistan prezidentinin sözlərinə əsaslanır: "Mən Ermənistan prezidenti ilə danışdım və o, mənə dedi ki, bu münaqişə əvvəlki toqquşmalardan kəskin şəkildə fərqlənir. Çünki Türkiyə Azərbaycana açıq şəkildə dəstək göstərir. Üstəlik, o, mənə dedi ki, Türkiyə öz zabitləri, generalları, muzdluları, terrorçu cihad döyüşçüləri ilə Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana minlərlə adam gətirib. Türkiyə öz hərbi gücü ilə guya müəyyən beynəlxalq logistik strukturları qorumaq üçün orada olduğunu deyir. Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?"

Prezident İlham Əliyev suala cavab verməklə həm də dolayısı ilə kanalın şayiə yaydığını söylədi. Azərbaycanın heç bir xarici hərbi qüvvədən istifadə etmədiyini birmənalı şəkildə bildirən Prezident İlham Əliyev eyni zamanda vaxtilə Ermənistanın Azərbaycan ərazilərini xarici havadarlarının köməyi ilə işğal etdiyini bildirərək jurnalisti fakt qarşısında qoydu və həm də dünya ictimaiyyətini bir daha bu barədə məlumatlandırdı. "Bəli, türk avadanlığı var. Türk qüvvələri yoxdur. Səmimi desəm, Ermənistan prezidentinin dünyaya mesaj ünvanlamaq üçün CNN vasitəsilə şayiə yaymaq məqsədilə bu imkandan istifadə etməsi məni təəssüfləndirir. Mən bunu başqa cür adlandıra bilmirəm, çünki sizin mənə təqdim etdiyiniz kimi, onun dedikləri, mən onun dediklərini görməmişəm, lakin mənim sizdən eşitdiklərim tamamilə yanlışdır, bu, yanlış informasiyadır. Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər. Mən həmçinin Ermənistanın prezidentinə 1990-cı illərin əvvəlində Ermənistan bizim torpaqları işğal etdikdə onun arxasında kimin durduğunu xatırlatmaq istəyirəm. Bizim torpaqlarımızı işğal etmək üçün onlara kimlərin kömək göstərdiyinə dair bizdə kifayət qədər sübut var. Buna görə Ermənistan tərəfindən "Azərbaycana kimsə kömək edir" demək tamamilə səhv və yanlış informasiyadır, biz bunu rədd edirik" cavabından sonra jurnalist bir daha Azərbaycanı muzdlulardan istifadədə ittiham edə bilmədi.

Azərbaycanda türk silahlarının olmasına gəldikdə isə Prezidentin cavabı olduqca müdrik oldu. Bəli, Azərbaycanda təkcə türk silahları yox, həm də rus, İsrail, Belarus, Ukrayna silahları var və həmin silahları Azərbaycan onları Ermənistandan fərqli olaraq hansısa dövlətdən hədiyyə kimi yox, pulla alır.

Fransanın "Figaro" qəzeti də Prezident İlham Əliyevlə müsahibədə heç bir fakta söykənmədən Azərbaycanı xarici döyüşçülərdən istifadədə ittiham edirdi: "Türkiyənin müdaxiləsini və Türkiyədən müxalif Suriya döyüşçülərini qəbul etməklə Siz yerli bir münaqişənin regional bir müharibəyə çevrilməsindən qorxmursunuz?" Lakin Prezident İlham Əliyev bəyan etdi ki, bu barədə iddia edənlər tərəfindən heç bir dəlil təqdim olunmamışdır və bu, Azərbaycanı təcavüzkar kimi təqdim etmək üçün daha bir cəhddir: "Əvvəla, Türkiyə əsla münaqişəyə cəlb edilməyib. Türkiyənin iştirakına dair heç bir dənə də sübut yoxdur. Ermənistanın Azərbaycana qarşı hücum həyata keçirdiyi ilk saatlardan Türkiyə, Türkiyənin Prezidenti və digər yüksək səviyyəli rəsmilər Azərbaycana güclü siyasi dəstəyi, beynəlxalq hüququn norma və prinsiplərinə dəstəyi, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin icrasına dəstəyi ifadə ediblər və ifadə etməyə davam edirlər. Deməli, bu, birincisi. İkincisi, Azərbaycan tərəfində heç bir əcnəbi döyüşçü yoxdur. Bu, başqa bir feyk xəbərdir. Bu, bəzi ölkələrin bəzi rəsmiləri tərəfindən yayılmışdır. Lakin bu vaxtadək, toqquşmalar başlayandan sonra iyirmi gündən çox bir müddətdə bizə nə Fransadan, nə də Rusiyadan heç bir dəlil təqdim olunmamışdır. Çünki bu bəyanatı Fransa və Rusiya rəsmiləri vermişdir və biz onlardan sübut tələb etmişdik. Biz dəlilləri tələb etmişdik. Yalnız sözlər. Heç bir sübut yoxdur, heç bir dəlil yoxdur. Digər bir məsələ ondan ibarətdir ki, bizə bizimlə birgə vuruşacaq əcnəbilər lazım deyil, çünki bizim 100 min nəfərdən ibarət nizami ordumuz var. Bizim müasir avadanlığımız var, bizim 30 ildir ki, işğaldan əziyyət çəkən motivasiyalı insanlarımız var. Biz hətta tam səfərbərlik belə elan etməmişik. Bizə döyüşdə əlavə insan lazım olsa, biz daha çoxlarını çağırarıq. Odur ki, bu, Azərbaycanı təcavüzkar kimi təqdim etmək üçün daha bir cəhddir və həmçinin onlara döyüş meydanında qalib gələn Azərbaycan Ordusunun potensialını azaltmaq üçün Ermənistanın cəhdidir".

Göründüyü kimi, jurnalist həm də Türkiyə hərbçilərinin də döyüşlərdə iştirak etdiyini iddia edir. 44 günlük müharibə günlərində Azərbaycan Türkiyənin siyasi və mənəvi dəstəyini gördü. Türkiyə dövləti, onun siyasi-hərbi rəhbərliyi bu müharibədə birmənalı şəkildə Azərbaycanın yanında oldu, ölkəmizin haqlı mövqeyini, ərazi bütövlüyünü qətiyyətlə dəstəklədi. Bu ölkənin siyasi və hərbi rəhbərliyi birmənalı və qəti şəkildə, həm də sərt üslubda Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər. Bu baxımdan Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı Vətən müharibəsinin gedişində daha da möhkəmləndi, daha sarsılmaz oldu. Bütün dünya bir daha Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının şahidi oldu.

Türkiyənin Azərbaycanı dəstəkləməsi ayrı-ayrı siyasi dairələr və erməni təəssübkeşləri tərəfindən qısqanclıqla qarşılanırdı. Çünki bu gün güclü Türkiyənin beynəlxalq məsələlərdə iştirakı və qətiyyətli mövqeyi göz önündədir. Buna görə də Türkiyənin Azərbaycana güclü siyasi dəstəyi bəzi dairələr tərəfindən narahatlıqla qarşılanırdı. Bu, "France 24" televiziya kanalının sualında da özünü büruzə verdi. "Fransanın xarici işlər naziri Jan-İv Le Drian deyib ki, Türkiyənin hərbi iştirakı mövcuddur və bu da münaqişənin beynəlmiləlləşdirilməsinə gətirib çıxara bilər. O, bu məsələdə səhv edir?", - deyə kanalın jurnalisti sual verirdi. Prezident İlham Əliyevin dəqiq və konkret cavabı isə jurnalistin bu məsələdə iddialarını davam etdirməsinin qarşısını aldı. "Bəli, o, bu məsələdə səhv edir. Türkiyənin hərbi iştirakı daha bir feyk xəbərdir. Türkiyənin hərbi iştirakı yoxdur. Biz Türkiyə istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik, bu, doğrudur. Lakin biz Rusiya istehsalı olan hərbi avadanlıqlardan, İsrail istehsalı olan hərbi avadanlıqlardan, digər ölkələrin istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik. Bunu pulsuz əldə edən Ermənistandan fərqli olaraq biz bu hərbi avadanlıqları alırıq. Siyasi müstəvi istisna olmaqla, Türkiyə heç bir halda prosesdə iştirak etmir. Burada Türkiyə qoşunları yoxdur. Türkiyənin F-16-ları buradadır, lakin onlar burada birgə hərbi təlimdən sonra qalıblar. Yeri gəlmişkən, ötən il biz hava qüvvələri də daxil olmaqla, Türkiyə ilə 10 birgə hərbi təlim keçirmişik. Bu il pandemiya səbəbindən biz cəmi 2 təlim keçirdik. Belə alındı ki, hərbi təlimdən sonra bu toqquşma baş verdi. Beləliklə, biz F-16-ları yerdə saxlamağı qərara aldıq və onlar yerdədir, havada deyil", - deyə İlham Əliyev bildirdi.

"France 24" televiziya kanalının Fransanın xarici işlər nazirinin heç bir fakta əsaslanmayan sözlərinə əsaslanan eyni məzmunlu sualını "CNN International" televiziyasının jurnalisti də Prezident İlham Əliyevə ünvanlamışdı. "Sky News" televiziya kanalının da müxbiri "Fransızlar və ruslar deyirlər onlarda kəşfiyyat məlumatı var ki, Sizin cəbhə xəttində suriyalı muzdlulardan istifadə olunur. Siz bunu qəti şəkildə inkar edirsiniz?" - deyə sual etmişdi. Bütün bunlar bir daha göstərir ki, Qərbin adıçəkilən KİV Prezident İlham Əliyevlə müsahibədən əvvəl ermənipərəst siyasi dairələrdən aldıqları eyni məzmunlu sifarişləri yerinə yetiriblər.

## Prezident İlham Əliyevə verilən bir çox suallarda dünya erməniliyinin keçirdiyi qorxu hissi açıq şəkildə görünürdü

Bu müsahibələrdə görünən başqa bir məqam dünya erməniliyinin keçirdiyi qorxu hissinin açıq şəkildə görünməsi idi. Bu demək olar ki, bütün müsahibələrdə İlham Əliyevə müharibənin nə qədər çəkəcəyi, o cümlədən Azərbaycanın şərtləri barədə verilən suallardan aydın görünürdü. Lakin bu sualları verərkən jurnalistlər Azərbaycanı öz ərazilərini işğaldan azad edən ölkə kimi deyil, sanki başqa bir dövlətin torpaqlarını zəbt edən tərəf kimi göstərməyə çalışırdılar. Məsələn, "BBC News" televiziyasının müxbiri İlham Əliyevin şərtlərini ultimatum kimi şərh edərək sual verir: "Siz bir ultimatum verirsiniz, Siz deyirsiniz ki, onlar bütün bu əraziləri qaytarmağa razılaşmalıdır və yalnız sonra danışıqlar ola bilər. Bu danışıqlar üçün böyük bir ilkin şərtdir". Prezident İlham Əliyev danışıqlar prosesindən xəbəri olmayan jurnalistin sualını təmkinlə cavablayır: "Xeyr, heç də belə deyil. Çünki mənim dediyim əsas prinsiplərə əsaslanır və əsas prinsiplərdə Dağlıq Qarabağın ətrafındakı ərazilərin boşaldılması çox aydın qeyd olunub. Bu, Ermənistan üçün çox aydın mesajdır. Əfsuslar olsun ki, Ermənistan Minsk qrupunun həmsədrləri və əvvəlki Ermənistan rəhbərliyi tərəfindən işlənib hazırlanmış əsas prinsiplərlə razılaşmadı. Bu əsas prinsiplərdə deyilir ki, onlar birinci mərhələdə işğal olunmuş 5 rayonu boşaltmalıdırlar, ikinci mərhələdə isə 2 rayonu boşaltmalıdırlar. Lakin beş rayondan dördü artıq azad edilib. Əgər onlar bunu etsələr, Ağdamın bir hissəsini, Kəlbəcəri və Laçını nə vaxt boşaldacaqlarını açıq bəyan etsələr, biz dayanarıq".

Növbəti bir sualda jurnalist sanki Ermənistanın nümayəndəsi kimi danışır: "Lakin Siz Dağlıq Qarabağ üzərində nəzarəti güc yolu ilə ələ keçirsəniz, Sizin də eynilə eyni şeyi törədəcəyinizlə bağlı qorxular var. Ermənistan öz insanlarının etnik təmizləməyə məruz qalacağından çox ciddi qorxduğunu ifadə etmişdir". O cümlədən "Dağlıq Qarabağ üzərində nəzarəti ələ keçirsəniz, həqiqətən də, bir ermənin Dağlıq Qarabağda qalacağını və Azərbaycan qanunları ilə yaşayacağını gözləyirsiniz?", "Ermənilər də, əlbəttə, iddia edirlər ki, onlar da qovulublar, onlar da illərlə qətliamların qurbanları olublar", "Burada, Azərbaycanda yaşayan ermənilərlə bağlı. Bizə verilən məlumata görə, onların çoxu qorxu içində yaşayır, ermənilər kimi açıq tanınmağı istəmədiklərinə görə soyadlarını dəyişiblər. Dağlıq Qarabağdakı ermənilər özlərinin təhlükəsiz olacaqlarına necə əmin ola bilərlər ki?" kimi suallar isə əslində beynəlxalq ictimaiyyətdə Azərbaycan dövlətinin imicinə qarayaxmaq məqsədi güdürdü.

Müharibə günlərində dünya erməniliyini və erməni təəssübkeşlərini qorxudan başqa bir məsələ Qarabağ ermənilərinin taleyi idi. Ona görə müharibənin ilk günündən onlar Qarabağ ermənilərinin etnik təmizlənməyə məruz qalması barədə hay-həşir salmışdılar. Dünya erməniliyinin Azərbaycan barədə yanlış təsəvvür yaratmaq cəhdi Prezident İlham Əliyevə ünvanlanan suallarda öz əksini tapdı. Suallara diqqət yetirək. "CNN International": "Azərbaycan hökuməti torpaqları geri götürsə, onlar etnik təmizləməyə məruz qala bilərlər". Fransanın "Figaro" qəzeti: "Mən xatırlayıram ki, 1990-cı illərin əvvəllərində Bakıda antierməni poqromları var idi. Ona görə də ermənilər inanmırlar, deyirlər ki, yaşaya bilməzlər, Azərbaycan ərazisində yaşamaq üçün, həyatları üçün qorxurlar". Almaniyanın ARD televiziyası: "Bu insanlar Sizin hərbi əməliyyatlara, dedikləri kimi, etnik təmizləməyə məruz qalırlar?". "BBC News": "Onda Siz Dağlıq Qarabağda erməni vətəndaşlara qarşı heç bir etnik təmizləmənin aparılmayacağına dair mütləq zəmanət verirsiniz?"

*Ardı var*

***Ziyad SƏMƏDZADƏ,***
***AMEA-nın həqiqi üzvü,***
***Milli Məclisin deputatı***

# Şanlı Qələbə dahi intellektin nəticəsidir




Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı, Təhsil Nazirliyinin dəstəyi ilə paytaxt rayonlarının orta məktəb şagirdləri arasında "Müdrik siyasət - Qarabağ Zəfəri" mövzusunda referat yazı müsabiqəsinə yekun vurulmuşdur.

Əsas məqsədi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı şanlı qələbəsinin təbliği, eləcə də böyüməkdə olan gənc nəsildə doğma vətənə sevgi və məhəbbət hisslərinin aşılanması, onların arasında vətənpərvərlik ruhunun təbliğ olunması istiqamətində görülən işlərin daha da genişləndirilməsi olan müsabiqə 2 mərhələdən ibarət olmuşdur.

Bakı Şəhər İcra Hakimiyyətində təşkil edilən elmi konfransda Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, təhsil nazirinin müavini Firidun Qurbanov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun icraçı direktoru Cəbi Bəhrəmov, müsabiqənin Bakı şəhər turunun qalibləri seçilmiş şagirdlər iştirak ediblər. Eyni zamanda konfransa digər iştirakçı şagirdlər, paytaxt rayonlarının icra hakimiyyətlərinin məsul əməkdaşları, qalib şagirdlərin elmi rəhbərləri və onların təhsil aldıqları məktəblərin rəhbərləri də videoformatda qoşulmuşlar.

Konfransda Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov qonaqları salamlayaraq bildirmişdir ki, uzun illərdir erməni millətçiləri azərbaycanlılara və digər müsəlman xalqlarına qarşı soyqırımı siyasəti aparıblar. Əgər iki əsr əvvəl İrəvan xanlığının 70 faizi, Zəngəzurun böyük hissəsinin əhalisi azərbaycanlılardan ibarət idisə, indi həmin torpaqlarda bir nəfər də olsun soydaşımız qalmayıb. Bu siyasətin davamı olaraq ötən əsrin 90-cı illərində torpaqlarımızın 20 faizi işğal edilib.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkədə qüdrətli iqtisadiyyat və bu iqtisadi baza üzərində güclü ordu yaradılıb. Beynəlxalq münasibətlər və informasiya sahəsində böyük uğurlar əldə edilib. Bunun nəticəsində müharibədə şanlı Qələbə qazanılıb və torpaqlarımız işğaldan azad edilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu Qələbə son əsrlərdə Azərbaycanın ilk hərbi qələbəsidir. Bütün bunlar dövlət başçısı İlham Əliyevin dahi intellekti və müdrik siyasəti sayəsində əldə olunub. Bu da tarixdə şəxsiyyət fenomenini bir daha sübut edir.

Digər çıxışçılar da müsabiqənin əhəmiyyətini qeyd edərək Vətən savaşında qazanılan şanlı Qələbənin geniş təbliğinin vacibliyini vurğulamışlar. Qeyd edilmişdir ki, paytaxt rayonlarında keçirilən birinci mərhələdə 12 rayon üzrə 316 orta təhsil müəssisəsindən 1879 şagird iştirak edib, onlar 18 mövzu üzrə referatlarını təqdim ediblər. İlkin müsabiqələrdə 125 şagird birinci mərhələnin qalibi adına layiq görülüb, onlar diplom və hədiyyələrlə mükafatlandırılıblar. Müsabiqə komissiyası tərəfindən rayon qalibləri arasından xüsusi fərqlənən 33 nəfər şagird Bakı şəhər mərhələsinə iştirak üçün vəsiqə qazanıb və onlar Bakı şəhəri üzrə keçirilən yekun mərhələdə müsabiqənin qalibi elan ediliblər.

Qalib məktəblilərin çıxışlarından sonra bu referatların Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən kitab şəklində çap ediləcəyi bildirilmişdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Azərbaycan vətəndaşları aprelin 1-dən Türkiyəyə biometrik şəxsiyyət vəsiqəsi ilə səyahət edə biləcəklər

2020-ci il dekabrın 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azad etmə haqqında 2020-ci il fevralın 25-də imzalanmış Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında 1 saylı Protokol"un qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurlar hər iki tərəfdən yerinə yetirilib və protokol 2021-ci il aprelin 1-də qüvvəyə minir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, beləliklə, qeyd olunan tarixdən etibarən Azərbaycan Respublikasının vətəndaşları diplomatik, xidməti və ümumvətəndaş pasportları, eləcə də Azərbaycan Respublikası vətəndaşının biometrik şəxsiyyət vəsiqəsi əsasında Türkiyə Respublikasına vizadan azad şəkildə səyahət etmək imkanına malik olacaqlar.

Yuxarıda sadalanan etibarlı sərhədkeçmə sənədlərinə malik olan Azərbaycan Respublikasının vətəndaşları Türkiyə Respublikasının ərazisinə daxil olmaq, tranzit keçmək və burada qalmaq üçün doxsan (90) gün müddətinə viza tələbindən azad edilirlər.

Türkiyə Respublikasının ərazisindən üçüncü ölkələrə və üçüncü ölkələrdən Türkiyə Respublikasının ərazisinə daxil olmaq üçün Azərbaycan Respublikasının vətəndaşları tərəfindən pasportlardan istifadə olunması məcburidir.

Bu mənada Azərbaycan Respublikası vətəndaşının biometrik şəxsiyyət vəsiqəsi yalnız Azərbaycan Respublikasının ərazisindən Türkiyə Respublikasına birbaşa səyahətlər üçün istifadə ediləcəkdir. Həmçinin Azərbaycan Respublikası vətəndaşının biometrik şəxsiyyət vəsiqəsi, eləcə də yuxarıda qeyd olunan digər sərhədkeçmə sənədləri Türkiyə Respublikasının ərazisinə giriş tarixindən etibarən ən azı otuz (30) gün etibarlılıq müddətinə malik olmalıdır.

Eyni zamanda Türkiyə Respublikasının ərazisində hər hansı səbəbdən doxsan (90) gündən artıq müddətdə qalmaq istəyən Azərbaycan Respublikasının vətəndaşları yaşamaq icazəsi almaq üçün tələb olunan müddətdən azı altmış (60) gün daha çox etibarlı olan pasport ilə müraciət etməlidirlər.

Azərbaycan Respublikası tarixində ilk dəfə şəxsiyyət vəsiqəsinin sərhədkeçmə sənədi kimi istifadə olunmasına dair müqaviləni qardaş Türkiyə Respublikası ilə imzalayıb. Bu, ölkələrimiz arasında mövcud olan dostluq, qardaşlıq və yüksək səviyyəli strateji tərəfdaşlıq münasibətlərinin bariz təcəssümüdür.



# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR





## Erməni qəddarlığının şahidləri

*"Artıq dörd aydır ki, Azərbaycan ərazisinin müxtəlif bölgələri quldur dəstələri tərəfindən dağıdılır, bolşevik adı altında özbaşına erməni hərbi hissələri və başqaları mülki müsəlman əhalisinin həyatı və əmlakına qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Eyni zamanda həmin quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən yanlış məlumatlar əsasında Avropa ölkələrində ictimai fikir tamamilə əks istiqamətə yönəldilir. Ümumdövlət maraqları, əhalinin zərərçəkən qruplarının mənafeyi hökmən elə bir təşkilatın yaradılması zərurətini irəli sürür ki, o, aşağıdakılarla məşğul olsun: 1. bütün zorakılıq hadisələrinin dəqiq qeydiyyatının aparılması; 2. həmin zorakılıqların törədildiyi şəraitin müəyyən edilməsi; 3. müqəssirlərin aşkar olunması və onların vurduqları zərərin ümumi miqdarının müəyyənləşdirilməsi; Bu təşkilat Fövqəladə Təhqiqat Komissiyası xarakteri daşımalıdır, habelə bu komissiyanın işinin nəticələri Avropanın əsas dillərində (rus, fransız, alman və təbii ki, türk dillərində) elan edilməli və geniş yayılmalıdır". 1918-ci il 15 iyulda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə xarici işlər naziri Məmmədhəsən Hacınskinin məruzəsində belə deyilirdi. Xüsusi vurğulanırdı ki, Təhqiqat Komissiyasının təşkilinə yubanmadan başlamaq lazımdır, "çünki bu gün, hadisələrin isti izi ilə asanlıqla müəyyən edilməsi mümkün olan bir çox işləri - şəxslərin dindirilməsi, fotoşəkillərin çəkilməsi və digər əşyayi-dəlillərin əldə edilməsini - sonradan görmək çətinləşəcəkdir, hətta ola bilsin ki, qətiyyən mümkün olmayacaqdır".*

Məruzədə irəli sürülən məsələlər geniş müzakirə olundu. Və gənc Cümhuriyyət hökuməti olduqca müdrik, uzaqgörən bir qərara imza atdı. Qərara alındı: "Xarici işlər nazirinin məruzəsi bəyənilsin və ona tapşırılsın ki, Avropa müharibəsi başladığı vaxtdan bütün Zaqafqaziya ərazisində müsəlmanlar və onların əmlakı üzərində işlədilmiş zorakılıq hallarını təhqiq etmək üçün Fövqəladə Təhqiqat Komissiyası yaradılsın".

Komissiyaya sədr Ələkbər bəy Xasməmmədov, üzvləri İsmayıl bəy Şahmalıyev, Andrey-Klimentiy Fomiç Novatski, Nikolay Mixayloviç Mixaylov, V.V.Qudvillo, Məhəmməd xan Təkinski, Aley Adamoviç Aleksandroviç təyin olundular.

Rəsmi orqan olan Fövqəladə Təhqiqat Komissiyası Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin əvvəlcə Xarici İşlər, sonra Ədliyyə nazirlikləri yanında 1918-ci il iyulun 15-dən 1920-ci ilin aprelinədək fəaliyyət göstərdi.

1918-ci ilin 15 iyulundan 1919-cu ilin 1 noyabrınadək Fövqəladə Təhqiqat Komissiyası tərəfindən toplanan 36 cilddən (3500 vərəq) ibarət istintaq materialının 6 cildində ermənilər tərəfindən Bakı şəhəri və onun ətrafında müsəlman əhalisinə qarşı törədilmiş zorakılıq halları əksini tapmışdı. İstintaq materialının digər cildlərində Şamaxı, Quba, Göyçay, Cavad, Nuxa qəzalarında, Gəncə, Qarabağ və Zəngəzurda ermənilər tərəfindən törədilmiş amansız cinayətlər təhqiq olunmuşdu.

Komissiyanın üzvü Nikolay Mixayloviç Mixaylov 1918-ci il oktyabrın 26-da həmin il sentyabrın 22-dən oktyabrın 23-dək Göyçay qəzasında aparılan təhqiqat işləri haqqında məlumat vermişdi. Bildirmişdi ki, qeyd olunan müddətdə 500 nəfərdən çox şahid dindirilib, Kürdəmir dəmir yolu vağzalına və Kürdəmir polis sahəsinə aid 7 kəndə (Kürdəmir, Qarabucaq, Mustafalı, Xəlilli, Qasım bəy, Ərəb Mehdibəy, Dadalı) baxış keçirilib. 1918-ci il noyabrın 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ələkbər bəy Xasməmmədov Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinə göndərdiyi məruzələrdə Bakı quberniyası, Göyçay qəzasının Kürdəmir, Qarabucaq, Ərəb Mehdibəy və başqa kəndlərində, Şamaxı şəhəri və Şamaxı qəzasının müsəlman kəndlərində azərbaycanlılara qarşı törədilmiş zorakılıqların təhqiqinin ilk vəziyyəti haqqında ətraflı məlumat vermişdi.

1919-cu il yanvarın 6-da Ələkbər bəy Xasməmmədov Paris sülh konfransına gedən nümayəndə heyətinə təqdim etmək üçün Bakı, Quba və Şamaxı şəhərlərində, Şamaxı, Göyçay, Cavad, Quba qəzalarında ermənilər tərəfindən müsəlmanlara qarşı törədilmiş vəhşilikləri əyani sübut edən məlumatları məktubla birlikdə xarici işlər nazirinə göndərmişdi. Məlumatda qeyd olunmuşdu ki, Lənkəran qəzasında daşnak polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsində isə polkovnik İllarinoviç başda olmaqla ruslar tərəfindən, İrəvan quberniyasında, Gəncə quberniyasının 4 qəzasında - Cavanşir, Cəbrayıl, Şuşa və Zəngəzurda böyük dağıntılar törədilib, azərbaycanlılar kütləvi məhv edilib. Komissiya xaricə göndərilən nümayəndə heyəti üçün əşyayi-dəlil kimi altı cilddən ibarət ilkin təhqiqat materialı və 95 ədəd fotoşəkil hazırlamışdı.

Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307-ci və 443-cü maddələrinə uyğun olaraq zərərçəkən qismində dindirilənlərin söylədikləri dəhşətli idi. 1918-ci il 4 dekabrda zərərçəkənlərdən biri - Bakı şəhəri, 4-cü Paralelnaya küçəsində yaşayan 33 yaşlı Xanımana Ağarza qızı demişdi: "1918-ci il mart ayının 19-da səhər 10-11 radələrində otuza yaxın silahlı erməni əsgəri yuxarıda göstərilən evə soxuldular, yeddi nəfər müsəlman kişisini, o cümlədən mənim 70 yaşlı atam Ağarzanın tüfəngin qundağı ilə başını parçalayaraq öldürdülər, altı nəfər qadını, iki azyaşlı uşağı qətlə yetirdilər. Ermənilər uşaqları süngü ilə öldürdülər. Mənim iki min rublumu zorla aldılar, atamın isə cibindən dörd min səkkiz yüz rubl (4800 rubl) pulunu çıxardılar. Məni əsir apardılar və mənzilimi qarət etdilər. Qarət edilmiş əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm, əşyaları yeni qiymətlə beş min manat dəyərində qiymətləndirirəm. Yolboyu məni və digər qadınları qundaqlarla vururdular və yerə yıxılan qadınları hörüklərindən tutaraq qaldırırdılar. Erməni əsgərləri bütün qonşu evlərə də girir, müsəlmanları cinsindən və yaşından asılı olmayaraq öldürür, onların əmlakını qarət və məhv edirdilər".

İndi Təzə bazarın yerləşdiyi yerdə 1918-ci il Mart soyqırımı zamanı çox az adam sağ qaldı. Hələ martın 19-da ermənilər demək olar ki, şəhərin bu ərazisindəki yaşayış məskənlərini yerlə-yeksan etmişdilər. Mənbələrdə qeyd olunmuşdu ki, müsəlmanlar burada martın 31-dək cəsədləri yığışdırıb qurtara bilmirdilər. Meyitləri müsəlmanlar qəbiristanlığa aparırdılar. Ancaq sonrakı vaxtlarda təsadüfən burada torpağa dərindən basdırılmamış 57 müsəlman qadının cəsədi aşkarlandı. Şahid Xanımana Ağarza qızı da şəhərin bu hissəsində o zaman demək olar ki, müsəlmanların hamısının qətlə yetirildiyini söyləmişdi: "...elə bir ev yox idi ki, ermənilər kimisə öldürməsinlər, əksinə, elə evlər var ki, ermənilər evdəkilərin hamısını qətlə yetirmişlər. Erməni əsgərləri müsəlmanların çox olduğu evlərə od vururdular". Şahid bu ərazinin demək olar ki, bütünlükdə ermənilər tərəfindən məhv edildiyini, bu rayondan çox az sayda müsəlmanın sağ qaldığını demişdi: "Evlərdə və küçələrdə müsəlman kişilərin, qadın və uşaqların və hətta südəmər körpələrin eybəcər hala salınmış meyitləri uzanıb qalmışdı. Bütün dəhşətlər haqqında danışmaq çox çətindir. Ağırdır".

Həmin ilin 13 dekabrında eyni maddələri uyğun olaraq zərərçəkən qismində dindirilən Bakı sakini, 1-ci Kanitapinskaya küçəsi, dalan 7, ev 8 ünvanında yaşayan 35 yaşlı Xədicə Qəni qızı danışırdı: "Bu ilin mart ayının 19-da səhər tezdən yüz nəfərdən artıq erməni əsgəri yuxarıda göstərilən evə soxuldular və mənim 45 yaşlı ərim İsmayıl Kərbəlayı Abbas Qulu oğlunu öldürdülər, mənim mənzilimi 6240 rubl dəyərində qarət etdilər, ərimin cibindən isə 7000 rubl pulunu çıxardılar. Mən azyaşlı uşaqlarımla yəhudi qadının evində gizlənmişdim. Bir saatdan sonra ermənilər məni əsir götürdülər. Ermənilər mənim əşyalarımı mənzilimdən avtomobilə qoyurdular və aparırdılar. Erməni əsgərləri qonşularımızı da öldürürdülər və evlərini qarət edirdilər. Mənim ərimi tüfənglə öldürdülər və ayaqlarını kəsdilər. Qarət edilmiş əşyaların siyahısını sizə təqdim edirəm."

1918-ci il 11 dekabrda Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Prosessual Məcəlləsinin 307-ci və 443-cü maddələrinə uyğun zərərçəkən qismində dindirilən Bakı şəhəri, 10-cu Kanitapinskaya küçəsi, 34 saylı evdə yaşayan 40 yaşlı Zərəfşan Bəyəli qızı həmin ilin 19 martında evinə soxulan ermənilərin qəddar əməllərindən danışmışdı: "...mənim 20 yaşlı oğlum Məmməd Əli Nəcəf Qulu oğlunu öldürdülər və mənzilimi qarət etdilər. 5124 rubl dəyərində qarət edilmiş əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Ermənilər 300 rubl nağd pulumu sandıqdan çıxardılar. Məni uşaqlarımla birlikdə əsir apardılar və dörd gün saxladılar. İki yaşlı oğlum əsirlikdə qollarımın üstündə öldü. Onun adı Abbasəli idi. Mənim ərim bağrı çatlayaraq öldü. Dörd gündən sonra məni buraxdılar və elə həmin gün iki oğlum, 6 yaşlı Həsən Bala və 9 yaşlı Hüseyn Bala da acından öldülər. Mən bir tikə çörəyə möhtac qalmışam".

Noyabrın 7-də Bakının Tatarskaya küçəsi, 90 saylı evdə yaşayan 20 yaşlı Zeynəb Xanım Əkbər qızı zərərçəkən qismində dindirilərkən demişdi: "Bu ilin mart ayının 21-də otuz nəfər silahlı erməni əsgəri yuxarıda göstərilən evə gəldilər, mənzilimi 24.425 rubl dəyərində qarət etdilər və 1 yaş yarımlıq qızım Teyraxanımı ayaqlayıb əzdilər. Dağıdılıb-sındırılmış əşyaların siyahısını təqdim edirəm və işə əlavə olunmasını xahiş edirəm. Eşitdiyimə görə, erməni əsgərləri mənim qonşularımın evlərində də uşaqları ayaqlayaraq əziblər. Mən ayaqlanan qızımın çığırtısını indi də eşidirəm".

1918-ci il 26 dekabrda 45 yaşlı Ziyarət Xanım Zülfəli qızı zərərçəkmiş qismində ifadə vermişdi: "Bakı şəhəri, Qoqolevskaya küçəsi, 83 saylı evin sakiniyəm, daimi olaraq isə Bakı quberniyasının Binəqədi kəndində yaşayıram. Bu ilin sentyabrında ermənilər Binəqədidə müsəlman kəndlilərini, o cümlədən mənim 6 nəfər qohumumu, yəni 2 uşaq, 2 qadın və 2 kişini xəncərlə doğramışlar. Bundan əlavə, ermənilər ümumi dəyəri 28.800 rubl olan əmlakımı qarət etmişdilər. Oğurlanmış əmlakın siyahısının işə əlavə olunmasını xahiş edirəm. Qatillərin adını bilmirəm".

Azərbaycanlılara qarşı törədilmiş qəddar əməllərin təşkilatçılarına, iştirakçılarına qarşı cinayət işi qaldırılması barədə 128 məruzə və qərar layihəsi hazırlandı. Onların əsasında müxtəlif cinayətlərdə müqəssir bilinən 194 şəxsə qarşı cinayət işi qaldırıldı.

Fövqəladə Təhqiqat Komissiyasının materialları üzrə 1918-ci il Bakıda mart hadisələrinə görə 24, Şamaxı hadisələrinə görə isə 100-ə yaxın şəxs haqqında cinayət işi açıldı. Hüquq-mühafizə orqanları tərəfindən müttəhimlərin bir hissəsi həbs edildi, qalanları barədə axtarış elan olundu.

Fövqəladə Təhqiqat Komissiyası daşnak quldur dəstələrinin qanlı əməllərinin təhqiqi sahəsində böyük iş gördü. Komissiya üzvlərinin gərgin əməyi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1918-ci ildə ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı cinayətləri üzə çıxarıldı. Zərərçəkmiş yüzlərlə vətəndaş və şahid dindirildi, çoxlu material, maddi dəlil-sübut, fotosənəd toplandı. Bu gün həmin sənədlər 1918-ci ildə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımının ən tutarlı sübutudur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Dəhşətli qırğınların susan şahidi

### "Sümüktökülən dərə"nin sirləri açıldıqca daşnakların barbarlığı bir daha öz təsdiqini tapdı



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ötən il 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü münasibətilə rəsmi "İnstagram" səhifəsindəki paylaşımında deyilir: "Bu gün 31 Mart - Azərbaycanlıların Soyqırımı Günüdür. Tarix boyu üzləşdiyi bütün faciələrə, çətinliklərə və haqsızlıqlara baxmayaraq, xalqımız deportasiya, etnik təmizləmə və kütləvi qırğınların sarsıntılarını yaddaşında yaşadaraq müstəqillik əzmini qoruyub saxlamış, möhkəm iradə, yenilməz birlik və həmrəylik nümayiş etdirmiş, dövlətimizin qüdrətinin daha da möhkəmlənməsinə nail olmuşdur. Soyqırımı qurbanlarının əziz xatirəsini ehtiramla yad edir, bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm".





1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan xalqının parçalanmasının və tarixi torpaqlarımızın bölünməsinin əsası qoyulub, sonrakı dövrdə isə həmin torpaqların özgəninkiləşdirmə prosesinə başlanılıb. Qısa müddətdə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib.

### Qanlı qırğınların tarixi

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirib. Ermənilərin Bakıda törətdiyi kütləvi qırğınlar Azərbaycanı və indiki Ermənistan ərazisindəki soydaşlarımızın tarixi kəndlərini əhatə edib. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilib və Nazirlər Şurası iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul edib. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırıb. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılıb. 1919-cu və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilib. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi olub. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra həmin proses dayandırılıb, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və "31 Mart - Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Fərmanda deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

### Soyqırımı qurbanlarının xatirəsinə indiki nəslin müqəddəs borcu...

Ümummilli Lider Heydər Əliyev 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar deyib: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur".

Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara,100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir. Müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncam imzalayıb. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".

### Kəlbəcərin "Dikyurd" və "Söyüdlü" yaylaqlarındakı qırğınlar daha dəhşətli olub

Azərbaycan xalqı və dövləti soyqırımı qurbanlarının xatirəsini daim əziz tutur, bütün dünyanı erməni faşizminin iç üzünü görmək üçün bu tarixi hadisələrdən ibrət götürməyə çağırır.

31 Mart tariximizi unutmağa heç birimizin haqqı yetməz! Çünki bu qanlı tarix azərbaycanlıların daşnak ermənilər tərəfindən soyqırımına məruz qaldığı gündür! Konkret gətirəcəyimiz tarixi faktlar da bir daha onların vandalizm siyasəti yürütməsini təsdiqləyir.

Tarixi mənbələrə əsasən, 1918-ci il may ayının 4-də ermənilər gizli yolla Andronik Ozanyanın qoşununu Basarkeçər ərazisinə gətirərək həmin gecə qəflətən müsəlman kəndlərinə hücum ediblər. Şahidlərin söylədiklərinə görə, ermənilər kəndləri yandırıb, talan edib, dinc əhalini isə işgəncələrlə qətlə yetiriblər. Aşıq Nəcəf də məhz həmin döyüşlər zamanı kürəyinə qaynar samovar bağlanaraq yandırılıb. Belə işgəncələrlə insanların (oxu: türksoyluların) qətlə yetirilməsi sanki ermənilər üçün bir əyləncə forması olub.

Göyçə mahalında 35 kənd Andronik Ozanyanın qoşunu tərəfindən tamamilə dağıdılıb, Basarkeçər ermənilərə qurban verilib. Müsəlman əhali o qədər qırılıb ki, kəlbəcərlilər onları vaxtında dəfn etməyi çatdıra bilməyiblər.

Kəlbəcərə yaxın olan "Dikyurd" və "Söyüdlü" yaylaqlarındakı qırğınlar daha dəhşətli olub. "Sümüktökülən dərə" adlanan ərazi o illərin şahidi kimi göz dağına çevrilib. Həmin döyüşlərdə və qırğınlarda Göyçə mahalı 17 min nəfər əhalisini itirib...

Dağlarda qırılan göyçəlilərdən kimsə xəbər tutmayıb. Son illərə qədər sümüklə dolu olan o müdhiş yer "Sümüktökülən dərə" adı ilə coğrafi məkana çevrilib.

### "Sümüktökülən dərə"nin dərdi də açıldı

1918-ci ilin qışında erməni işğalçıları Kəlbəcərin şimalında yerləşən, o vaxt və sonralar 32 kəndin qədim sakinləri olan azəri türklərini Kəlbəcər ərazisinə qovub, onların bütün var-dövlətlərini talan ediblər. O il qışın görünməmiş sərt keçməsi barədə şahidlərin təkzibolunmaz faktları bu gün də dildə-ağızda dolaşır. Təkcə onu demək kifayətdir ki, gecə ikən şiddətli boran və tufanda 300-400 ailə ayaqyalın-başıaçıq dərin dağ dərəsində qarın altında qalaraq tamamilə qırılıb, salamat qalanlar isə Kəlbəcərin Basarkeçərlə həmsərhəd kəndlərinə sığınıblar.

Kəlbəcərin Ermənistanla həmsərhəd olması zaman-zaman torpaqlarının bir hissəsinin ermənilər tərəfindən zəbt olunmasına və ya keçmiş sovetlər birliyi dövründə yürütdüyü məkrli siyasət nəticəsində "pay" verilməsinə gətirib çıxarıb. Kəlbəcər ərazisindəki yeraltı və yerüstü xəzinəyə görə o, daim özgələrin - yadellilərin tamahına səbəb olub.

Nəhayət, dünya erməni vandallarının Azərbaycan torpaqlarında törətdikləri vəhşiliyin canlı şahidinə çevrildi. Daşnakların barbarlığı müzəffər Ordumuzun başda Ali Baş Komandan İlham Əliyev olmaqla, 2020-ci ilin 27 sentyabrında başlayan 44 günlük Vətən müharibəsində qazandığı Zəfər Qələbəsindən sonra bir daha üzə çıxdı. 28 il ərzində Ermənistanın işğal altında saxladığı ərazilərdən biri olan Kəlbəcərdə işğalçıların törətdikləri vandalizm aktları, barbarlıq da sona çatdı. Dünya artıq ermənilərin hansı murdar xislətə malik olduğunu öz gözləri ilə gördü. "Sümüktökülən dərə"nin də dərdi açıldı. Məlum oldu ki, vandallar nəinki ana təbiətə, insanlığa qarşı da amansız olublar.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***



# Şuşadan dünyaya verilən mesaj

*Əvvəli 1-ci səh.*

Vətən müharibəsində döyüşənlərin əksəriyyəti Birinci Qarabağ müharibəsini görməsələr də, düşmənə nifrət hissi ilə yetişmişdilər. Ən vacib məsələlərdən biri də odur ki, Azərbaycan cəmiyyətində güclü milli və siyasi həmrəylik mövcuddur və bütün bunlar böyük Qələbəyə gedən yolda mühüm amillər idi.

Bu illər ərzində davam edən nəticəsiz danışıqlar prosesində Azərbaycana çox böyük təzyiqlər də oldu, lakin İlham Əliyev ölkəmizin mənafelərini qətiyyətlə qorudu, Ermənistanın maraqları naminə münaqişənin güc yolu ilə həllinə qarşı çıxanların, hərb variantını istisna edənlərin təkliflərini yaxına buraxmadı.

Beləliklə, İlham Əliyev müdrik və uzaqgörən siyasəti ilə torpaqlarımızın işğaldan azad edilməsi tarixini yetişdirdi və cəmi 44 gün ərzində bunu reallaşdırdı. Dövlət başçısının dediyi kimi, hazırlaşdıq və düşməni məğlub etdik: "Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz".

Ötən bayramlarda xalqımızın etdiyi ən müqəddəs dua artıq yerinə yetib: torpaqlarımız işğaldan azad olunub, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Azərbaycan dəmir yumruğu ilə düşmənin başını əzdi, ona layiq olduğu cəzanı verdi. İndi xalqımız həm də mənəvi baxımdan rahatdır. Çünki Novruz tonqallarımız Qarabağda da şölələndi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Vətən müharibəsindəki Qələbə ilə soyqırımı qurbanlarının da qisası alındı

*Əvvəli 1-ci səh.*

Bakının böyük bir hissəsini xarabalığa çevirdilər. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə də xüsusi qəddarlıqla həyata keçirildi. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirildi, şəhər və kəndlər yandırıldı, milli mədəniyyət abidələri dağıdılıb məhv edildi.

Təkcə Bakıda bir həftə ərzində əksəriyyətini dinc sakinlər və əsas etibarilə müsəlmanlar təşkil edən 12 mindən çox insan vəhşicəsinə qətlə yetirildi. Bolşevik-daşnak dəstələri hətta azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə vermirdilər. Onlar cəsədləri yanan binalara atır, quyulara, dənizə tökürdülər. Bakıda Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tam hakimiyyətinin bərqərar olması qurbanların dəqiq sayının hesablanmasına imkan vermədi. Lakin İranın Bakıdakı konsulu Məhəmməd Səid-ol Vesarə Marağeyinin yazdığına görə, təkcə onun yaratdığı xüsusi komissiya tərəfindən paytaxtın küçə və həyətlərindən 5000-dən çox müsəlmanın meyiti toplanmış və dəfn olunmuşdu.

Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur - yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər..."

Həmin dəhşətli günlərin şahidi olmuş alman A.Y.Kluqe qeyd edirdi ki, ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdı. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər.

M.Ə.Rəsulzadə A.Y.Kluqeyə istinadla yazırdı: "Kluqenin, digər əcnəbilərin o günlərin xatirəsi olmaq üzrə almış olduqları və bu gün əllərdə mövcud olan fotolar çox faciəli mənzərələri əks etdirir. Bir yığın qızlı-erkəkli cocuq ölüləri üzərində qocaman çoban köpəkləri bu məsum yavruları gəmirir... Çılpaq bir qadın yerə sərilmiş, ölmüş... bu ölü vücudun qurumuş məməsini canlı bir yavru əmməkdədir..."

1918-ci ilin mart-aprel aylarında Şamaxıda öldürülənlərin sayına gəlincə, bəzi məlumatlarda bu rəqəmin 7 min, bəzilərində isə 8-12 min, hətta 40 min olduğu göstərilir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının sənədlərində 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasında azərbaycanlılar yaşayan 58 kəndə ermənilərin hücumu zamanı 3632 kişinin, 1771 qadının, 956 uşağın vəhşicəsinə öldürüldüyü qeyd olunurdu. Lakin ekspertlərin digər arxiv sənədləri əsasında apardıqları hesablamalara görə, Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlı qətlə yetirilib. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın, 1277 nəfəri uşaq olub. Digər bir mənbədə isə Şamaxının 72 kəndində ermənilərin 7 min nəfəri, o cümlədən 1653 qadın və 965 uşağı öldürdüyü bildirilir. Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-sının erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Komissiya öz işini dayandırdığından digər 34 kənd haqqında məlumat toplamaq mümkün olmayıb.

Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə İstintaq Komissiyası mart soyqırımını - ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri və İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. Martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü elan olundu. Bununla da azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət verməyə cəhd göstərildi. Lakin Cümhuriyyətin süqutu bu sahədə başlanmış işi yarımçıq qoydu.

1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verildi və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edildi. Fərmanla soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplandı, Quba şəhərində kütləvi məzarlıq aşkarlandı. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş, faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir.

Ermənilərin azərbaycanlılara qarşı soyqırımları 74 il sonra yenidən təkrarlandı. 1992-ci ilin fevralında Qaradağlıda, Xocalıda ermənilərin zaman-zaman törətdikləri qanlı qırğınların davamı olan dəhşətli soyqırımları baş verdi. Erməni faşistlərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq ərazimizin 20 faizi işğal edildi, minlərlə vətəndaşımız şəhid oldu, bir milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin salındı.

Ötən il sentyabrın 27-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə 44 günlük Vətən müharibəsi ölkəmizin qələbəsi ilə başa çatdı və Azərbaycan özünün ərazi bütövlüyünü bərpa etdi. 30 ilə yaxın erməni işğalçılarının tapdağı altında qalan Qarabağımız Müzəffər Ordumuzun vətənpərvər, igid oğullarının sayəsində azadlığına qovuşdu. Azərbaycanın Qarabağda qazandığı qələbə ilə şəhidlərimizin, günahsız insanların, soyqırımı qurbanlarının qisası alındı.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Yerli icra hakimiyyəti orqanının vəzifəli şəxsi barəsində cinayət işi məhkəməyə göndərilib

Dövlətin əmək və məşğulluq sahəsində həyata keçirdiyi siyasətə qanunsuz əməlləri ilə kölgə salan vəzifəli şəxslərə qarşı prokurorluq orqanları tərəfindən mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi, yerli icra hakimiyyəti orqanının vəzifəli şəxsinin qanunsuz əməlləri barəsində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində fakta görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə başlanmış cinayət işi üzrə istintaq aparılıb.

Aparılmış istintaqla Lənkəran Şəhər Yaşıllaşdırma Müəssisəsinin rəisi vəzifəsində işləmiş Şaban Şəfiyevin vəzifə səlahiyyətlərinin icrası zəminində tabeliyində çalışan Anar Mirzəyev, rayon sakinləri Şəyyar Əliyev, Amil Məmmədov və Xoşbəxt İsrafilovun köməkliyi ilə ümumilikdə 15 nəfərdən ibarət ayrı-ayrı şəxsin həmin müəssisəyə işə qəbul olunmasına dair yalan məlumatları rəsmi informasiya resursuna daxil etməklə 3800 manat məbləğində pul vəsaitini rüşvət qismində almasına, həmin şəxslərin iş yeri olması ilə bağlı yalan məlumatlar əsasında onlara ümumilikdə 20 min 900 manat məbləğində ünvanlı dövlət sosial yardımın ayrılmasına və bununla da büdcə vəsaitinin təyinatından kənar xərclənməsinə şərait yaratmasına əsaslı şübhələr müəyyənləşdirilib.

Bundan başqa, Şaban Şəfiyevin istintaqın gedişində tutduğu vəzifədən azad edilməsinə baxmayaraq, rəsmi möhürün qısa müddətdə özündə olmasından istifadə edərək gələcəkdə məsuliyyətdən kənar qalmaq məqsədilə ümumilikdə 8 nəfərlə Lənkəran Şəhər Yaşıllaşdırma Müəssisəsi arasında əmək münasibətlərinin yaranması və xitamı görüntüsü yaratmaqla rəsmi sənəd hesab edilən əmək müqavilələri və əmrlərin imzalanmasına nail olmasına, bununla da bilə-bilə saxta sənədlərdən istifadə edib cinayət işi üzrə sübutları saxtalaşdırmasına əsaslı şübhələr müəyyən olunub.

Həmin qanunsuz hərəkətləri ilə Şaban Şəfiyev Cinayət Məcəlləsinin 294.3-cü (ağır və ya xüsusilə ağır cinayətlər haqqında cinayət işi üzrə sübutları saxtalaşdırma), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.2-ci (vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə görə rüşvət alma), 313-cü (vəzifə saxtakarlığı), 320-ci (bilə-bilə saxta rəsmi sənədlərdən istifadə etmə) maddələri, Anar Mirzəyev, Şəyyar Əliyev, Xoşbəxt İsrafilov və Amil Məmmədov isə həmin Məcəllənin 32.5,311.2-ci (vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə görə rüşvət almağa köməkçilik) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb ediliblər. Şaban Şəfiyev barəsində məhkəmənin qərarı ilə həbs, digər şəxslər barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbirləri seçilib.

Cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

## "Sumqayıt Kimya Sənaye Parkı" MMC sənaye zonalarının fəaliyyətinin təşkili ilə bağlı tərtibat işlərinin görülməsi üçün kotirovka sorğusu keçirir

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65).

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kotirovka sorğusunda iştirak etmək üçün müraciət;
- iddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri və ya sistemdən çıxarış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- Azərbaycan Respublikasında daimi fəaliyyətə və müvafiq iş təcrübəsinə malik olması;
- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 02 aprel 2021-ci il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 05 aprel 2021-ci il saat 12:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Buta Airways" İstanbul və İzmir şəhərlərinə reyslərin sayını artırır

2021-ci ilin aprel ayından etibarən "Buta Airways" aşağıbüdcəli aviaşirkəti Bakıdan İstanbul və İzmir şəhərlərinə yerinə yetirdiyi xüsusi reyslərin sayını tədricən artırmağı planlaşdırır.

"Buta Airways" aviaşirkətinin Mətbuat xidmətindən verilən məlumata görə, aşağıbüdcəli aviaşirkətin Türkiyənin qeyd edilən iki şəhərinə uçuşlarının artması sərnişinlərə həmin marşrutlar üzrə biletləri rəqabətədavamlı və münasib qiymətə əldə etmək imkanı yaradacaq. Bakıdan İzmirə və geri reyslərin sayı həftədə üç dəfədən dörd dəfəyədək artırılacaq. Aprel ayının 20-dən etibarən isə Bakı-İstanbul-Bakı istiqamətində uçuşlar hər gün yerinə yetiriləcək.

Reyslər "Buta Airways" tərəfindən Türkiyənin Adnan Menderes (İzmir) və Sabiha Gökçen (İstanbul) hava limanlarına yerinə yetiriləcək.

Ölkədəki epidemioloji vəziyyətlə bağlı tətbiq edilmiş məhdudiyyətləri və qaydaları nəzərə alaraq aviaşirkət biletləri yalnız iki tarif üzrə təklif edir - "Standart" və "Super". Hər iki tarifə ödənişsiz qaydada yer seçimi və hava limanında qeydiyyat opsiyaları daxildir.

Qeyd edilən reyslərə biletlər "Buta Airways" aviaşirkətinin rəsmi saytında ("Super" və "Standart" tarifləri üzrə) və akkreditə olunmuş agentliklərində (yalnız "Super" tarifi üzrə) mövcuddur. Aviabiletlərin qiyməti 55 avrodan başlayır.

Pandemiya dövründə həmin reyslərə həm gediş, həm gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci Terminalında xidmət göstəriləcəkdir.

Reyslərə mövcud epidemioloji məhdudiyyətlər şəraitində uçuş icazəsi olan kateqoriyalı sərnişinlər qəbul olunacaq.

Bakı-İstanbul və ya Bakı-İzmir istiqaməti üzrə reyslərin sərnişinləri:

- Türkiyə ərazisinə giriş hüququna malik olmalıdılar. Pandemiya dövründə Türkiyəyə giriş qaydaları ilə aviaşirkətin saytında aşağıdakı keçid vasitəsilə tanış ola bilərsiniz: https://www.butaairways.az/az/covid/turkey
- koronavirus infeksiyasının olmaması barədə tibbi arayış almalıdırlar. Azərbaycanda koronavirus infeksiyasına dair testdən keçə biləcəyiniz klinikaların siyahısı aviaşirkətin saytında dərc edilmişdir: https://www.butaairways.az/az/covid/clinics

İstanbul-Bakı və ya İzmir-Bakı istiqaməti üzrə reyslərin sərnişinləri:

- Azərbaycan ərazisinə giriş hüququnun olub-olmadığını yoxlamalıdırlar. Azərbaycan ərazisinə giriş icazəsi olan şəxslərin siyahısı ilə aşağıdakı keçiddən istifadə etməklə tanış ola bilərsiniz: https://www.butaairways.az/az/covid/azerbaiyan
- koronavirus infeksiyasının olmaması barədə arayış almalıdırlar. Testin nəticəsində QR-kod qeyd olunması tövsiyə olunur (QR-kodun həqiqiliyi qeydiyyat masalarında yoxlanılacaq). Türkiyədən uçuş zamanı "Memorial Sağlık Grubu"nun klinikalarından birində və ya ölkənin səhiyyə nazirliyinin saytında dərc olunmuş siyahıdakı klinikalarda test vermək mümkündür: https://hsgm.saglik.gov.tr/tr/haberler/yetkilendirilmis-covi-d-19-tani-laboratuvarlari.-html

"Buta Airways" aşağıbüdcəli aviaşirkəti 6 dekabr 2020-ci il tarixdən Bakıdan İzmir şəhərinə, bu ilin 18 mart tarixindən isə İstanbul şəhərinə reyslər həyata keçirir.

Həmçinin qeyd etməliyik ki, Türkiyə və Azərbaycan hökumətləri arasında imzalanmış "Şəxsiyyət vəsiqəsi ilə səfər haqqında protokol"a əsasən 2021-ci ilin 1 aprel tarixindən etibarən iki ölkənin vətəndaşları sadəcə olaraq yeni nümunəli şəxsiyyət vəsiqəsi ilə birbaşa uçuşlar yerinə yetirə bilərlər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, Bakıya aviareyslərlə gələn bütün sərnişinlər iki həftə ərzində özünütəcrid şəraitində qalmalıdırlar.

Bütün istiqamətlər üzrə reyslərin sərnişinləri COVID-19 testinin nəticəsinin uçuşdan əvvəl 48 saat ərzində etibarlı olduğundan əmin olmalıdırlar.

## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

***açıq tender elan edir***

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

LOT 1- İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin yeni binasının təchizatı

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübə, görülmüş işlərə zəmanətin verilməsi, iddiaçının dövriyyəsi nəzərə alınmaqla.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Azərbaycan Beynəlxalq Bankı **(ASAN ödəniş ilə portal vasitəsilə ödəniş olunmalıdır).**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**

**Fond-7**
**Kitab nömrəsi-002306-2318501**
**Funksional təsnifat-00113**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**

**İştirak haqqı - 400 man.**

**İştirak haqqı heç bir halda geri gaytarılmır.**

Bütün iddiaçılar prosedurda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə **21.04.2021-ci il saat 13:00-a** kimi təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat;*
- *görülmüş işlərə zəmanətin verilməsi;*
- *bank rekvizitləri;*
- *tender təklifi **sənədi** (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair **sənədlərini 21.04.2021-ci il tarixə kimi** və tender təklifi ilə bank təminatı **sənədlərini 29 aprel 2021-ci il saat 16:00-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30 aprel 2021-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

## "ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə

"ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarını 17 may 2021-ci il saat 11:00-da keçiriləcək cəmiyyətin ümumi yığıncağına dəvət edir.

Gündəlikdəki məsələlər

1. Səhmdar cəmiyyətin 2020-ci il üzrə maliyyə-təsərrüfat fəailiyyəti barədə hesabatı.
2. Digər təşkilati məsələlər.
3. Dividendlərin bölüşdürülməsi.

İclas səhmdar cəmiyyətin ofisində keçiriləcək.

***İdarə Heyəti***

# Baş Prokurorluq "xəbərfakt.az" və "Azel TV" xəbər portallarının baş redaktorları ilə bağlı məlumat yayıb

Ölkəmizdə həyata keçirilən kompleks islahatlar çərçivəsində milli mətbuatımızın inkişafı, azad söz və media mühitinin formalaşdırılması, kütləvi informasiya vasitələrinin azadlığının, eləcə də müstəqil jurnalistikanın keyfiyyət göstəricilərinin artırılması istiqamətində mühüm irəliləyişlərə nail olunub.

Bununla yanaşı, həyata keçirilən bu mütərəqqi siyasətə kölgə sala biləcək neqativ amillərə, o cümlədən kütləvi informasiya vasitələrinin azadlığından və jurnalist hüquqlarından sui-istifadə edilərək ayrı-ayrı şəxslər barəsində böhtan xarakterli və rüsvayedici məlumatların mütəmadi olaraq mətbuat orqanlarında yayımlanması hədəsi ilə vətəndaşlardan pul tələb edilməsi, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması kimi hallara da rast gəlinməkdədir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin qanunsuz hallara qarşı prokurorluq orqanları tərəfindən müvafiq tədbirlər həyata keçirilir. Görülən kompleks tədbirlər çərçivəsində "xəbərfakt.az" internet xəbər portalının baş redaktoru Sakit Muradov və "Azel TV" xəbər portalının baş redaktoru Əfqan Sadıqov qabaqcadan əlbir olaraq barələrində rüsvayedici məlumatları silsilə məqalələrlə kütləvi informasiya vasitələrində yayacaqları hədəsi ilə Sumqayıt Şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsləri ilə görüşərək həmin məlumatların yayımlanmaması müqabilində tələb etdikləri pulun 10 min manatını paytaxtın Xətai rayonu ərazisində alarkən cinayət başında yaxalanıblar. Cinayətin predmeti olan 10 min manat məbləğində pul vəsaiti aşkarlanaraq götürülüb.

Əfqan Sadıqov və Sakit Muradovun Cinayət Məcəlləsinin 182.2.1-ci və 182.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında xeyli miqdarda əmlakı hədə-qorxu ilə tələb etmə) maddələri ilə təqsirləndirildiyi cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib və həmin məhkəmənin 2020-ci il 3 noyabr tarixli hökmü ilə Əfqan Sadıqov 7 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunub.

Sumqayıt Apellyasiya Məhkəməsinin 2021-ci il 28 yanvar tarixli qərarı ilə hökm Əfqan Sadıqova münasibətdə dəyişdirilərək, təyin edilmiş 7 il müddətinə azadlıqdan məhrumetmə cəzası 6 ilə endirilib.

Habelə həmin hökmlə Sakit Muradov həmin maddələrlə təqsirli bilinib 5 il müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum olunub. İbtidai istintaq və məhkəmə baxışı zamanı nümayiş etdirdiyi səmimi etiraf, peşmançılıq və digər yüngülləşdirici hallar nəzərə alınaraq, ona təyin edilmiş cəza cinayət qanunvericiliyinə müvafiq olaraq 3 il sınaq müddəti ilə şərti hesab edilib.

Bununla belə, bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Əfqan Sadıqovun təqsirləndirildiyi cinayət işi üzrə sonuncunun həyat yoldaşı Sevinc Sadıqova və özünü müxalifət adlandıran bəzi məsuliyyətsiz qruplaşmalar tərəfindən ictimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət etmək məqsədi güdən bu növ bəyanatların yayılması ilə Dövlət Təhlükəsizliyi Xidməti və digər dövlət orqanlarına qarşı böhtan və qarayaxma kampaniyası aparılaraq həyata keçirilən hüquqi tədbirlərin üzərinə kölgə salmağa yönələn məlumatlar yayılır.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bir daha həqiqətə uyğun olmayan informasiyaları yaymaqla ictimai çaşqınlığa səbəb olan kütləvi informasiya vasitələrini bu sahədə milli qanunvericiliyin tələblərinə riayət etməyə, dəqiqləşdirilməmiş, qərəzli, mənbəyi məlum olmayan, konkret hadisələrin mahiyyətini təhrif edən informasiyaların yayımlanmasına yol verməməyə çağırır.

Eyni zamanda, Baş Prokurorluq bu tipli yalan və qərəzli məlumatları yayan, habelə sosial şəbəkə və kütləvi informasiya vasitələrinə ötürən şəxslərə, o cümlədən vətəndaş Sevinc Sadıqovaya həmin qanunsuz əməllərin davam etdiriləcəyi təqdirdə barələrində hüquqi təsir tədbirlərinin görüləcəyi barədə xəbərdarlıq edərək onları bu növ hüquqazidd hərəkətlərdən çəkinməyə çağırır.

Biz birlikdə güclüyük!

# Azərbaycan pandemiyaya qarşı beynəlxalq mübarizənin önündədir

*Əvvəli 1-ci səh.*

Ötən il dekabrın 3-4-də keçirilmiş BMT Baş Assambleyasının COVID-19 pandemiyasına həsr olunan xüsusi sessiyasında İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi çıxış edərək bütün ölkələri həmrəyliyə çağırdı, birtərəfli addımlar atılmamasının, peyvəndin bütün ölkələrin xalqları üçün əlçatan olmasının vacibliyini önə çəkdi.

İlham Əliyevin qlobal liderlik missiyası beynəlxalq müstəvidə pandemiya ilə mübarizəyə birbaşa təkan verir, qlobal bəladan bütün ölkələrin minimum itkilərlə çıxması üçün dəqiq strategiya müəyyən edir. Sözün əsl mənasında, ölkəmiz bu addımı ilə dünyanı birləşdirir.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə bəşəri problemin aradan qaldırılması istiqamətində daha bir uğura isə bu yaxınlarda imza atıldı. Martın 23-də BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edildi.

Sənəd BMT-yə üzv dövlətləri və digər əlaqədar qurumları COVID-19 əleyhinə peyvəndlərin bütün dövlətlər arasında ədalətli bölüşdürülməsini təmin etmək istiqamətində müvafiq tədbirlər görməyə çağırır. Eyni zamanda peyvəndlərin ədalətli bölüşdürülməsini dəstəkləmək məqsədilə yaradılmış beynəlxalq təşəbbüslərə, o cümlədən COVAX təşəbbüsünə dəstək ifadə edən qətnamə bütün dövlətlərdən peyvəndlərin digər ölkələrə ixracı ilə bağlı mövcud olan lazımsız əngəlləri aradan qaldırmağa diqqət çəkir.

Azərbaycan koronavirusun ortaya çıxdığı ilk zamanlardan etibarən ona qarşı operativ şəkildə qabaqlayıcı tədbirlər həyata keçirən ölkələrdəndir. Qonşu ölkələrlə yük avtomobillərinin hərəkəti istisna olmaqla, bütün sərhədlərimiz bağlanıldı, xaricdəki vətəndaşlarımız vətənə qaytarıldı. Qısa zaman ərzində səhiyyə sistemi virusla mübarizəyə istiqamətləndirildi, modul tipli xəstəxanalar inşa edildi. Maska istehsalı fabriki açıldı, eyni zamanda 20-dən çox müasir laboratoriya quraşdırıldı. Ölkəmizdə həm də yoluxmanın erkən aşkarlanması üçün xeyli sayda testlərin aparılması, koronavirusa yoluxmuş bütün xəstələrin xəstəxana şəraitində yüksək səviyyədə müalicə edilməsi və bu istiqamətdə görülən kompleks tədbirlər sağalanların sayını çoxaltdı. Virusa yoluxma dinamikası nəzərə alınaraq mərhələli şəkildə həyata keçirilən sərtləşdirmə və yumşaldılma tədbirləri öz bəhrəsini verdi, COVID hər zaman nəzarətolunan səviyyədə saxlanıldı.

Xüsusi karantin rejiminin tətbiq olunduğu zaman dövlət hər bir vətəndaşının yanında oldu, onların problemlərinin həllinə dəstək göstərdi, maddi yardım etdi. İqtisadi sabitliyi, məşğulluqla bağlı problemləri həll etmək üçün sosial-iqtisadi dəstək paketi qəbul olundu.

Azərbaycan pandemiya ilə uğurlu mübarizəsini paralel olaraq dünya səviyyəsində də tətbiq edir və beynəlxalq müstəvidə bu mübarizəyə dəstək verən ilk ölkələrdəndir. Respublikamız Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verib və bu vəsaitin 5 milyonu Qoşulmama Hərəkatına üzv olan kasıb ölkələrə ayrılıb.

Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışındakı nitqində Prezident İlham Əliyev vurğulamışdı ki, həm ölkə daxilində lazımi tədbirləri görürük, həm də beynəlxalq müstəvidə öz sözümüzü deyirik: "...Ondan çox ölkəyə yardım etmişik və hesab edirəm ki, düz etmişik. Çünki məhz belə günlərdə, belə dövrdə insanların da, ölkələrin də əsl siması üzə çıxır. Yaxşı vəziyyətdə hər kəs hər kəslə dostdur. Hər kəs yaxşı sözlər deyir, beynəlxalq tədbirlərdə çıxışlar edir, qarşılıqlı dəstək haqqında danışır, amma əməldə bunu göstərmək lazımdır, əməldə".

Azərbaycanın istər ölkə daxilində, istərsə də qlobal müstəvidə pandemiyaya qarşı apardığı mübarizə modeli hər zaman beynəlxalq səviyyədə təqdir olunub, ÜST tərəfindən nümunə göstərilib. Azərbaycan həm də Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkədir. Vaksinasiyaya Avropa ölkələrindən cəmi bir ay sonra başlayıb. Hazırda ölkəmizdə Çin istehsalı olan "SinoVAC" vaksini istifadə olunur və artıq yarım milyondan çox insanın vaksinləşməsi həyata keçirilib.

Lakin onu da qeyd etməliyik ki, Azərbaycan COVAX təşəbbüsünə ilk qoşulan və dəstək verən ölkələrdən biri olsa da, bu qurum tərəfindən ölkəmizə vaksinlərin verilməsində müəyyən problemlər yaranıb. Belə ki, öncədən razılaşdırılmasına baxmayaraq, hələ də vaksinlər ölkəmizə təhvil verilməyib. Təəssüfləndiricidir ki, COVAX çərçivəsində vaksinlər yalnız öz çevrələrində olan ölkələr arasında qeyri-bərabər şəkildə paylanıldı və bu proses hələ də davam etməkdədir. Bir sıra ölkələrə nəzərdə tutulduğundan artıq vaksin verilsə də, digər ölkələr bu vaksinləri ala bilmirlər, nəticədə isə bu ölkələrdə vaksinləşmə prosesi ciddi şəkildə ləngiyir. Məhz bu səbəbdən Azərbaycan da COVAX-dan razılaşdırılmış peyvəndləri ala bilmir.

Fevralın 26-da Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında vaksinlərin ölkələr üzrə bərabər bölünməməsi məsələsindən danışarkən vurğulamışdı ki, hətta müttəfiqlər arasında da ciddi problemlər yaranır, kimin neçə vaksindən istifadə etməsini və kimin kimə nəyi yarımçıq verməsini hesablamağa başlayırlar: "Ona görə bu vəziyyət bir daha göstərir ki, həmrəylik barədə, bu bəlaya qarşı birgə mübarizə barədə bütün bəyanatlara baxmayaraq, praktikada tamamilə əks vəziyyət görürük. Məsələn, bəzi ölkələr onlara lazım olandan 3-4 dəfə çox vaksin alıblar".

Elə bu baxımdan Azərbaycanın təşəbbüsü ilə martın 23-də "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamənin qəbul edilməsi hazırda dünyada yaşanan vaksinasiya ilə bağlı ədalətsizliyin aradan qaldırılmasına da mühüm töhfə verəcək.

Azərbaycanın pandemiyaya qarşı hərtərəfli mübarizəsi və zamanında gördüyü işlər ölkədə pandemiyanın fəsadlarının minimum səviyyədə olmasına zəmin yaradıb. Hökumət tərəfindən həyata keçirilən tədbirlərin daha effektiv olması isə biz vətəndaşların ehtiyatlı olmasından, pandemiya qaydalarına məsuliyyətlə əməl etməsindən birbaşa asılıdır. Təəssüf ki, koronavirus Yer üzündən yox olmayıb və yeni mutasiyaları ilə insanların sağlığını təhlükə altında saxlayır. Narahatedicidir ki, Azərbaycanda da "Britaniya ştammı"na rast gəlinib və son zamanlar yoluxma sayında artım müşahidə olunur. Xəstəlikdən ölənlərin sayı da artıb. Hazırda müşahidə olunan bu mənfi tendensiyaya dur demək isə çox sadədir. Nə qədər ki, bütün dünyada insanlar arasında koronavirusa qarşı kütləvi immunitet qazanılmayıb, maska taxmaq, sosial məsafə saxlamaq, gigiyena qaydalarına əməl etmək həyati əhəmiyyət daşıyacaq.

COVID-ə qarşı kütləvi immunitetin qazanılmasının başlıca şərti isə vaksinasiyadır və ümid edirik ki, tez bir zamanda bəzi ölkələr tərəfindən peyvəndlərlə bağlı ikili yanaşmaya son qoyular və vaksinasiya bütün xalqlar üçün əlçatan olar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# Rusiya ermənilərinin rəhbəri Paşinyana qarşı mübarizəyə qoşulur

*Əvvəli 1-ci səh.*

Ermənistanın "Daşnaksütyun" partiyası Ali Şurasının üzvü, "Vətənin qurtuluşu hərəkatı"nın koordinatoru İşxan Saqatelyan polis zorakılığı ilə bağlı məlumat yayıb. O, polislərin qardaşı oğluna qarşı zor tətbiq etməsinə dair video paylaşıb. Saqatelyan zorakı metodların faydasız olacağını deyib: "Yerevanın mərkəzindəki mitinqdən sonra qardaşım oğluna hücum ediblər və daha sonra onu saxlayıblar. Nikol, bizə zorakılıqla zülm edə biləcəyini düşünmə. Bu heç bir nəticə verməz... Unutmayın, tezliklə hamınız bir-bir cavab verəcəksiniz".

Siyasi müstəvidə böyük problemlər yaşayan Ermənistanda əhalinin sosial durumu ağırdır, insanlar hətta gündəlik qida məhsullarına olan tələbatlarının ödənilməsində belə çətinliklərlə üzləşirlər. Yaranmış vəziyyətdə onsuz da sayı az olan iş yerlərinin bağlanması isə problemlərin miqyasının daha da genişlənməsinə rəvac verir. Təbii ki, bu da vətəndaşlarda hakimiyyətdən olan narazılığı daha da artırır, insanlar baş verənlərə ən sərt formada etirazlarını bildirirlər.

Bu günlərdə Yerevanın mərkəzindəki Respublika meydanında işsiz kişi etiraz aksiyası keçirib və öz ağzını tikib. Manvel Yeranosyan adlı bu şəxs aclıq elan edib və iş yerinə bərpa olunmasını istəyib. Lakin onun səsini eşidən olmayıb.

"İravnuk" qəzeti vəziyyətin ağırlığını göstərən daha bir amil kimi Yerevan bazarlarında alıcıların sayının gündən-günə azalmasını göstərir. Bunu bazardakı satıcılar da təsdiqləyir və narazılıqlarını bildirirlər. Onlardan biri qeyd edir: "Xalqın alıcılıq qabiliyyəti yoxdur. İş və əldə pul yoxdur, vəziyyət tamamilə iflic olub. Adamlar heç nə almaq imkanında deyillər. Əgər hökumət belə siyasət yürütməkdə davam edəcəksə, Ermənistan tamamilə boşalacaq".

Digər satıcı da qiymətlərin yüksək olması, pulun yoxluğu səbəbindən vəziyyətin bu kökə düşdüyünü bildirib: "Adamlar gəlirlər, baxıb gedirlər, yaxud çox az şey alırlar". Üçüncü satıcı əlavə edib: "Bütün xalq Moskvaya yollanır. Axşamlar pəncərədən baxırsan, evlərdə işıq da yanmır. Bütün hökumətlərin zamanında xalq bu çuxurdan çıxa bilməyib. Hökumətdən isə heç bir gözlənti yoxdur. Yalnız özümüzdən nəsə gözləyirik".

Göründüyü kimi, Ermənistanda siyasi, sosial-iqtisadi vəziyyət ağır olaraq qalmaqdadır. İşğal siyasətinin qurbanı olan bu ölkə indi öz mövcudiyyətinin ən ağır dövrünü yaşayır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyətinin 2020-ci il üzrə maliyyə hesabatları

## "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyəti 31 dekabr 2020-ci il tarixinə pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| A. ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ: | 2019 | 2020 |
|---|---|---|
| Yığılmış ümumi sığorta haqqları | 140,126,000 | 154,804,000 |
| Ötürülmüş sığorta haqqları, təkrarsığortaçının payı | -27,788,000 | -25,584,000 |
| Ümumi sığorta ödənişləri | -57,826,000 | -69,776,000 |
| Təkrarsığortaçılara ötürülmüş ödənişlər | 1,016,000 | 11,531,000 |
| Alınmış haqq və komissiyalar | 51,000 | 0 |
| Ödənilmiş haqq və komissiyalar | -1,077,000 | -2,108,000 |
| İşçilər üzrə ödənilmiş xərclər | -10,671,000 | -13,105,000 |
| Ödənilmiş ümumi və inzibati xərclər | -8,871,000 | -14,620,000 |
| Alınmış subroqasiya gəlirləri | 1,137,000 | 1,040,000 |
| İcbari Sığorta Bürosunda depozitlərin yerləşdirilməsi | 0 | 0 |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş vəsaitlər** | **36,097,000** | **42,182,000** |
| Ödənilmiş mənfəət vergisi | -5,445,000 | -10,943,000 |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş xalis vəsaitlər** | **30,652,000** | **31,239,000** |
| | | |
| **B. İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Alınmış faiz gəliri | 8,281,000 | 10,734,000 |
| Qiymətli kağızların alınması | -41,349,000 | -37,690,000 |
| Qiymətli kağızların satılması | 47,171,156 | 39,866,000 |
| Əmlak və avadanlıq alınması | -628,000 | -2,520,000 |
| Əmlak və avadanlıq satılması | 121,000 | 127,000 |
| Qeyri-maddi aktivlərin alınması | -103,000 | -291,000 |
| Qeyri-maddi aktivlərin satılması | 0 | 0 |
| Kredit təşkilatlarında yerləşdirilmiş məbləğlər | -24,747,000 | -26,960,000 |
| Kredit təşkilatlarından geri alınmış məbləğlər | 27,644,000 | 27,100,000 |
| **İnvestisiya fəaliyyətindən daxil olan xalis vəsaitlər** | **16,390,156** | **10,366,000** |
| | | |
| **C. MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Ödənilmiş dividendlər | -21,472,000 | -28,584,000 |
| Satış və yenidən alış əməliyyatları (REPO/ƏKSREPO) | -19,886,000 | -15,779,000 |
| Qısamüddətli borclar | 3,400,000 | 0 |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **-37,958,000** | **-44,363,000** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentinə valyuta məzənnəsi dəyişməsinin təsiri | -50,000 | -53,000 |
| **D. PUL VƏ PUL VƏSAİTLƏRİNDƏ XALİS ARTMA/(AZALMA)** | **9,034,156** | **-2,811,000** |
| | | |
| PUL VƏ PUL VƏSAİTLƏRİ, ilin əvvəlində | 4,036,844 | 13,071,000 |
| | | |
| **PUL VƏ PUL VƏSAİTLƏRİ, ilin sonunda** | **13,071,000** | **10,260,000** |

## "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyəti 31 dekabr 2020-ci il tarixinə kapitalda dəyişikliklər haqqında hesabat

*manatla*

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **50,000,000.00** | **22,041,642** | **72,041,642** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -18,983,000 | -18,983,000 |
| Hesabat dövrünün nəticəsi | | 13,094,322 | 13,094,322 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2017-ci il tarixinə qalıq** | **50,000,000.00** | **16,152,964** | **66,152,964** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -13,572,000 | -13,572,000 |
| Hesabat dövrünün nəticəsi | | 22,416,121 | 22,416,121 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | **50,000,000.00** | **24,997,085** | **74,997,085** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -21,472,000 | -21,472,000 |
| Hesabat dövrünün nəticəsi | | 31,078,868 | 31,078,868 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **50,000,000.00** | **34,603,953** | **84,603,953** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -28,584,000 | -28,584,000 |
| Hesabat dövrünün nəticəsi | | 20,634,926 | 20,634,926 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **50,000,000.00** | **26,654,879** | **76,654,879** |

## "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyəti 31 dekabr 2020-ci il tarixində tamamlanan il üzrə MƏNFƏƏT və ZƏRƏR HAQQINDA HESABAT

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **176,133,387** |
| birbaşa sığorta üzrə sığorta haqları | 154,654,339 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 8,474,144 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 11,928,685 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 1,076,219 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **-12,702,491** |
| **İnvestisiya gəlirləri üzrə** | **12,507,098** |
| **Subroqasiya gəlirləri** | **1,040,905** |
| **Sair gəlirlər** | **274,557** |
| **CƏMİ GƏLİRLƏR** | **177,253,456** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **114,894,401** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 71,452,031 |
| qaytarılan sığorta haqları üzrə | 1,079,867 |
| tənzimləmə xərcləri | 141,061 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 41,823,361 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 398,081 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 0 |
| **İşlərin aparılması xərcləri** | **32,288,050** |
| **Sair xərclər** | **872,123** |
| **CƏMİ XƏRCLƏR** | **148,054,574** |
| **Maliyyə mənfəəti (zərəri)** | **29,198,882** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | **0** |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **29,198,882** |
| **Mənfəət vergisi** | **8,563,956** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **20,634,926** |

## "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2020-ci il tarixinə mühasibat balansı

*manatla*

| AKTİVLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I.UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | **2,034,718** | **3,683,237** |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | **0** | **0** |
| **Daşınmaz əmlaka investisiyalar** | **0** | **0** |
| **Qeyri-maddi aktivlər** | **421,462** | **837,921** |
| **Təxirə salınmış vergi aktivləri** | **0** | **0** |
| **Uzunmüddətli debitor borcları** | **0** | **0** |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **57,803,768** | **46,404,603** |
| dövlət qiymətli kağızları | 45,887,795 | 34,488,630 |
| qeyri-dövlət qiymətli kağızları | 11,915,973 | 11,915,973 |
| sair maliyyə aktivləri | 0 | 0 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | **400,195** | **23,595,164** |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0** | **0** |
| **Sair aktivlər** | **0** | **0** |
| ***Cəmi uzunmüddətli aktivlər*** | ***60,660,143*** | ***74,520,925*** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **17,505** | **17,505** |
| **Debitor borcları:** | **36,607,999** | **40,516,631** |
| birbaşa sığorta üzrə | 17,878,224 | 21,705,854 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **1,971,722** | **3,856,665** |
| - təkrarsığortaçı üzrə | 609,686 | 978,395 |
| - təkrarsığortalı üzrə | 1,362,036 | 2,878,270 |
| asılı təşkilatlar üzrə | 0 | 0 |
| büdcə üzrə | 0 | 0 |
| iddia tələbləri üzrə | 0 | 0 |
| işçi heyəti üzrə | 0 | 0 |
| sığortalılara verilən borclar üzrə | 0 | 0 |
| sair debitorlar | 16,758,053 | 14,954,112 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **44,860,876** | **41,514,218** |
| kassa | 10,546 | 5,756 |
| hesablaşma hesabı | 13,173,831 | 7,959,411 |
| valyuta hesabı | 321,257 | 2,728,681 |
| depozit hesablar | 31,355,242 | 30,820,370 |
| sair pul vəsaitləri | 0 | 0 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **33,578,970** | **35,960,705** |
| dövlət qiymətli kağızları | 33,578,970 | 35,960,705 |
| qeyri-dövlət qiymətli kağızları | 0 | 0 |
| sair maliyyə aktivləri | 0 | 0 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **25,497,463** | **30,368,009** |
| həyat sığortası sahəsi üzrə | 0 | 0 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 25,497,463 | 30,368,009 |
| **Sair qısamüddətli aktivlər:** | **40,566** | **549,288** |
| gələcək hesabat dövrlərinin xərcləri | 0 | 0 |
| verilmiş avanslar | 0 | 459,689 |
| təhtəl hesablar | 40,566 | 89,599 |
| **Sair aktivlər** | **0** | **110,841** |
| ***Cəmi qısamüddətli aktivlər*** | ***140,603,379*** | ***149,037,197*** |
| **CƏMİ AKTİVLƏR** | **201,263,522** | **223,558,122** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I. KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **50,000,000** | **50,000,000** |
| **Emissiya gəliri** | **0** | **0** |
| **Geri alınmış kapital (səhmlər)** | **0** | **0** |
| **Kapital ehtiyatları:** | **0** | **0** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0 | 0 |
| digər kapital ehtiyatları | 0 | 0 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **34,603,953** | **26,654,879** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 31,078,868 | 20,634,926 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı | 0 | 0 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət | 3,525,085 | 6,019,953 |
| Elan edilmiş dividendlər | 0 | 0 |
| ***Cəmi kapital*** | ***84,603,953*** | ***76,654,879*** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **91,274,733** | **108,847,771** |
| Həyat sığortası sahəsi üzrə : | 0 | 0 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 91,274,733 | 108,847,771 |
| **Qarşısıalınma tədbirləri fondu** | **391,773** | **770,969** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | **0** | **0** |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | **0** | **0** |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | **0** | **0** |
| **Kreditor borcları :** | **0** | **0** |
| əməyin ödənilməsi üzrə | 0 | 0 |
| büdcə üzrə | 0 | 0 |
| sosial sığorta və təminat üzrə | 0 | 0 |
| digər məcburi ödənişlər üzrə | 0 | 0 |
| asılı təşkilatlar üzrə | 0 | 0 |
| sair kreditorlar | 0 | 0 |
| **Sair uzunmüddətli öhdəliklər:** | **0** | **0** |
| gələcək hesabat dövrünün gəlirləri | 0 | 0 |
| alınmış avanslar | 0 | 0 |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **11,906,909** | **22,681,692** |
| təkrarsığortaçı üzrə | 11,906,909 | 22,681,692 |
| təkrarsığortalı üzrə | 0 | 0 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0** | **0** |
| **Sair öhdəliklər** | **0** | **0** |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | ***103,573,415*** | ***132,300,432*** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | **0** | **0** |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | **3,401,558** | **3,427,116** |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **0** | **0** |
| **Kreditor borcları:** | **9,684,596** | **5,258,834** |
| əməyin ödənilməsi üzrə | 10,015 | 2,304 |
| büdcə üzrə | 4,574,806 | 1,761,365 |
| sosial sığorta və təminat üzrə | 21,630 | 302,826 |
| digər məcburi ödənişlər üzrə | 222,220 | 152,302 |
| asılı təşkilatlar üzrə | 0 | 0 |
| sair kreditorlar | 4,855,925 | 3,040,037 |
| **Sair qısamüddətli öhdəliklər:** | **0** | **4,614,896** |
| gələcək hesabat dövrünün gəlirləri | 0 | 0 |
| alınmış avanslar | 0 | 4,614,896 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0** | **0** |
| **Sair öhdəliklər** | **0** | **1,301,965** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | ***13,086,154*** | ***14,602,811*** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | ***116,659,569*** | ***146,903,243*** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **201,263,522** | **223,558,122** |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

## Samux Rayon İcra Hakimiyyəti Başçısının Samux Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi

### *elektron açıq tender elan edir*

Samux rayon Samux şəhərinin İlyas Əfəndiyev küçəsi, Qarabağ küçəsi, Qarabağ küçəsinin davamı, Nəriman Nərimanov küçəsi, Günəşli küçəsi, Kəpəz küçəsi və X.R.Ulutürk küçəsində əsaslı təmir işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumat əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**

Tenderdə iştirak haqqının ödənilməsi üçün bank rekvizitləri:

**Təşkilat: Samux Rayon İcra Hakimiyyəti Başçısının Samux şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi (Samux şəhər İƏD)**
**VÖEN: 6900128551**
**H/H: AZ61CTRE00000000000002511032**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BIK: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Görülən işlər təqdim olunmuş qrafikə əsasən yerinə yetirilməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 20 aprel 2021-ci il saat 10:00-dək, tender təklifi və bank təminatı sənədlərini 28 aprel 2021-ci il saat 12:00-dək Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 29 aprel 2021-ci il saat 10:00-da etender.gov.az elektron Portalında açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Masallı Rayon İcra Hakimiyyəti Başçısının Masallı şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi Masallı şəhərinin şəhərdaxili yollarının asfalt-beton təmiri işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: Əhədov Vahid Hüseynbala oğlu.

Ünvan: H.Əliyev prospekti, 99. Telefon: 025-215-30-33

Tender 1 (bir) LOT üzrə keçiriləcək.

**LOT 1 - Masallı şəhərinin şəhərdaxili yollarının asfalt-beton təmiri işlərinin satın alınması**

**İştirak haqqı: 700 manat**

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba 700 (yeddi yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Təşkilat: Masallı RİHB-nın Masallı şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi**
**23 saylı Regional Xəzinədarlıq Orqanı**
**XHK № AZ43CTRE00000000000002512132**
**VÖEN: 6400043871**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BIK: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;
4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- Dövlət Vergi Xidməti tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **16.04.2021-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **26.04.2021-ci il saat 17:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **27.04.2021-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## "Azərişıq" ASC 3D mobil xəritələrin tərtib edilməsi üçün proqram təminatının hazırlanması və quraşdırılması xidmətinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "Asan Ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödəniş etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**LOT-1:**

3D mobil xəritələrin tərtib edilməsi üçün proqram təminatının hazırlanması və quraşdırılması xidmətinin satın alınması

**İştirak haqqı - 500 manat**

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Rüfət Məmmədov (telefon: 440-39-93, daxili (94-04)) rufat.mammadov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 23 aprel 2021-ci il saat 12:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 03 may 2021-ci il saat 12:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 04 may 2021-ci il saat 12:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ACWA Power şirkəti

### *tender elan edir*

Qoyuluş gücü 240 Mvt olan külək elektrik stansiyasının yardımçı qurğularının tikintisi üçün yerli tikinti şirkətləri tenderdə iştirak etməyə dəvət edilir.

Maraqlanan şirkətlər jalifli@acwapower.com ünvanına 7 aprel 2021-ci il tarixə kimi yazılı müraciət edə bilərlər.

**ACWA Power şirkəti**



## OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## B İ L D İ R İ Ş

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatının inzibati binasının 1-ci mərtəbəsində yerləşən holun əsaslı təmir işlərinin satın alınması məqsədilə keçirilən tenderdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq tələb olunan sənədlərin son təqdim olunma tarixi və vaxtı 30.03.2021-ci il saat 14:00-dan 05.04.2021-ci il saat 14:00-a, tender təkliflərinin son təqdim olunma tarixi və vaxtı 07.04.2021-ci il saat 14:00-dan 13.04.2021-ci il saat 14:00-a, təkliflərin açılış tarixi və vaxtı 08.04.2021-ci il saat 14:00-dan 14.04.2021-ci il saat 14:00-a dəyişdirilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 04 fevral 2021-ci il tarixli sayında Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "Reklam vasitələrinin yaradılması və onun effektivliyi", "Tekstil fabrikinin yaradılması", "Məişət tullantılarının konteynerlərinin istehsalı və satışı imkanları", "Daşınar soyuducu anbarların istehsalı", "Boya istehsalı", "Optik eynəklərin istehsalı", "Minik və yük avtomobillərində yağdəyişmə xidmətləri", "Özəl və korporativ geyimlərin istehsalı", "Kimyəvi yuyucu vasitələrin istehsalı" və "Avtokimya xidməti və məhsullarının istehsalı (təmizlik vasitələri və xidmət zamanı istifadə olunan vasitələr)" layihələri üzrə daxili bazar araşdırmasının aparılmasına dair məsləhət xidmətinin satın alınması" məqsədi ilə elan edilmiş təkliflər sorğusunda "Satgroup" MMC qalib elan olunmuşdur.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC 09 mart 2021-ci il tarixdə müxtəlif reklam işlərini yerinə yetirmək üçün mal və materialların satın alınmasına dair açıq tender (Elektron) üsulu ilə müsabiqə keçirmiş və **"PROMCO AZERBAIJAN" MMC** müsabiqənin qalibi elan olunmuşdur.

Qalib ilə ƏDV daxil **194.762,54** (yüz doxsan dörd min yeddi yüz altmış iki manat 54 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıtdan Zakir Fərəcov Xətai rayon prokuroru Sərdar İmanova atası

**EYZAM MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva və universitetin kollektivi Əməkdar elm xadimi, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərova həyat yoldaşı

**ALMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Şəhər Məhkəməsinin kollektivi məhkəmənin hakimi Rövşən Xəlilova anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5247
Sifariş 584
Qiyməti 40 qəpik